# GÜRCÜSTAN

SAYI 19-20 (13.389)

CÜMƏ 14 MART 2025-ci il

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru www.gurcustan.com E-mail: gurcustan2023@gmail.com


## MİXEİL KAVELAŞVİLİ SAHİBƏ QAFAROVA İLƏ BİR SIRA MƏSƏLƏLƏRİ MÜZAKİRƏ EDİB



***Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfəri çərçivəsində Prezident Mixeil Kavelaşvili ilə görüş keçirib.*** Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi aparılıb, möhkəm, tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə olunub. Göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Respublikasının Prezidenti Mixeil Kavelaşviliyə çatdırıb. Gürcüstan Prezidenti Azərbaycan Prezidentinə minnətdarlığını bildirərək, onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib. Ölkələr arasında münasibətlərin inkişafında parlamentlərin xüsusi rolu qeyd olunaraq, iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq genişlənməsindən məmnunluq ifadə edilib. Spiker Sahibə Qafarova iki ölkənin parlamentləri arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətini qeyd edərək, bu sənədin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. Söhbət zamanı beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Prezident Mixeil Kavelaşvili ölkəmizə göstərilən dəstəyə görə Azərbaycana öz minnətdarlığını bildirib. Görüşdə, həmçinin ölkələrimizin üçtərəfli formatda da uğurlu əməkdaşlıq əlaqələrinin olduğu diqqətə çatdırılaraq, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalar ifadə edilib. Söhbət zamanı, həmçinin regionda vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Tərəflər regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayıblar. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

## BAŞ NAZİR: "GÜRCÜ ARZUSU" BÜTÜN BƏLƏDİYYƏLƏRDƏ MER SEÇKİLƏRİNDƏ QALİB GƏLƏCƏK

***"Müxalifətə yerli özünüidarəetmə seçkilərində iştirak etmək yəqin ki, çətin olacaq, çünki bu vaxta qədər hakimiyyətin, Baş nazirin və prezidentin qeyri-legitim olduğunu iddia edirdilər və indi isə prezident Kavelaşvili və baş nazir İrakli Kobaxidze tərəfindən təyin edilən yerli seçkilərdə iştirak etməlidirlər".***

Bunları Gürcüstanın Baş naziri İrakli Kobaxidze deyib.

*"Müxalifət daha əvvəl də belə bir şey etmişdi – imza toplayaraq parlamentə daxil olmayacaqlarını bəyan etmişdilər, lakin sonda girdilər. Dörd il əvvəl baş verən hadisələri xatırlayıram. İndi də deyirlər ki, yerli seçkilərdə iştirak etməyəcəklər, bunu artıq elan ediblər. Onlara nə əmr olunursa, onu da edəcəklər. Amma bəlkə də onlar üçün müəyyən qırmızı xətlər var. Bu qədər müddət prezidentin və baş nazirin qeyri-legitim olduğunu iddia edib, sonra da onların təyin etdiyi seçkilərdə iştirak etmək hətta onlar üçün də çətin ola bilər – prinsipialsızlıqlarına baxmayaraq. Biz 64 bələdiyyənin hamısında həm mer, həm də bələdiyyə seçkilərində qalib gəlməyi planlaşdırırıq və indidən tam əminliklə və özümüzə güvənərək deyə bilərəm ki, biz hər bir bələdiyyədə böyük üstünlüklə qalib gələcəyik"* , - deyə İrakli Kobaxidze "İmedi"nin efirində qonaq olarkən söyləyib.

## AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN VƏ GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRLƏRİ ARASINDA MEMORANDUM İMZALANIB



***Gürcüstana səfəri zamanı Milli Məclisin sədri Sahibə Qafarova Tbilisidə gürcü həmkarı Şalva Papuaşvili ilə görüşüb.*** Görüşdə Gürcüstan və Azərbaycan arasında tarixi dostluq və çoxşaxəli səmərəli əməkdaşlıq əlaqələrinin əhəmiyyəti vurğulanıb. Şalva Papuaşvili Gürcüstanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyinə görə Azərbaycan tərəfinə təşəkkür edib və Gürcüstanın da Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyib. Görüşdə iki ölkə arasında yüksək səviyyəli səfərlərin intensivliyi müzakirə olunub. Şalva Papuaşvili qeyd edib ki, Gürcüstanın yeni seçilmiş parlamentinə ilk rəsmi səfərin Azərbaycan Milli Məclisinin sədri tərəfindən həyata keçirilməsi rəmzi və sevindirici haldır. Görüşdə iki ölkənin qanunvericilik orqanları arasında, həm sədrlər, həm də komitə sədrləri arasında əlaqələr müsbət qiymətləndirilib. Sənədin əməkdaşlığın gələcək inkişafı üçün əhəmiyyəti qeyd edilib. Parlament sədrləri həmçinin Cənubi Qafqaz regionundakı mövcud vəziyyəti müzakirə edib və mehriban qonşuluq münasibətlərinin, sülhün və təhlükəsizliyin vacibliyini vurğulayıblar. Tərəflər strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi üzərində işləməyə hazır olduqlarını qeyd ediblər. Gürcüstan parlamenti ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında Anlaşma Memorandumu imzalanıb. Tərəflər parlamentlərarası əməkdaşlığın strateji tərəfdaşlıq ruhunda inkişaf etdirilməsi barədə razılığa gəliblər. Onlar həmçinin iki ölkənin parlament fəaliyyətinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması üçün komissiya və komitələr arasında müntəzəm əlaqələrin qurulmasına və parlament üzvlərinin nümayəndə heyətləri arasında mübadilələrin aparılmasına kömək edəcəklər. Sahibə Qafarova Şalva Papuaşvilini Azərbaycana dəvət edib. Görüşdə Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, Gürcüstanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze iştirak ediblər.

### T Ə H S İ L

## MÜƏLLİM İMTAHANLARINA QEYDİYYAT MARTIN 11-DƏN BAŞLAYIB

***Müəllimlərin və müəllim olmaq istəyənlərin qeydiyyatı martın 11-i saat 10:00-da başlayıb və aprelin 2-si saat 18:00-dək davam edəcək.***

Qeydiyyat yalnız Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin ***online. naec. ge*** qeydiyyat səhifəsində elektron şəkildə aparılır.

Nəzərə almaq lazımdır ki, imtahan verəcək şəxslər yalnız bir fənni, həmçinin arzu olunarsa, Baş Müəllimlik və Peşəkarlıq səviyyəsini artırma imtahanlarını seçmək hüququna malikdirlər.

Qeydiyyat zamanı müvafiq imtahan gürcü, Azərbaycan, erməni və rus dillərində verilə bilər.

Sınaqda iştirak haqqı 50 laridir.

***Təcrübəçi müəllimlərin nəzərinə:***

Təcrübəçi müəllim statusuna malik pedaqoqlar üçün fənn imtahanına qeydiyyat və peşəkar təcrübəçi müəllim statusuna malik müəllimlər üçün baş müəllim ixtisası üzrə imtahana qeydiyyat pulsuzdur.

Namizədlər qeydiyyat rüsumunu aprelin 2-si saat 18:00-a qədər ödəyib, lakin müəyyən səbəblərdən qeydiyyat prosesini başa çatdıra bilməyiblərsə, aprelin 10-u saat 18:00-dək qeydiyyatdan keçmək imkanı əldə edəcəklər. Həmçinin, qeydiyyat ərizəsinə dəyişiklik edə (imtahan şəhərini və ya imtahanı) bilərlər. Bu tarixdən sonra dəyişikliklər edilə bilməz.

Əgər imtahan verən şəxs "Ümumi təhsil haqqında" Gürcüstan Qanununda müəyyən edilmiş müəllim təhsili tələblərinə cavab vermirsə, o, imtahanın nəticələrindən istifadə edə bilməyəcək.

### BAHAR GƏLİR - YAZ GƏLİR

## TORPAQ ÇƏRŞƏNBƏSİ – TƏBİƏTİN OYANIŞI VƏ YENİ HƏYATIN BAŞLANĞICI

Torpaq Çərşənbəsi (Son Çərşənbə) Novruz bayramından əvvəl qeyd edilən dörd müqəddəs çərşənbədən sonuncusudur. Bu çərşənbə torpağın oyanmasını, baharın gəlişini və həyatın yenidən canlanmasını simvolizə edir. Torpaq, qədim türklər üçün müqəddəs sayılan dörd ünsürdən biridir (su, od, yel, torpaq). O, bərəkət, məhsuldarlıq, yeni başlanğıclar və həyatın əsasını təşkil edir. Bu çərşənbədə torpağın isindiyinə, əkin-biçin üçün hazır olduğuna inanılır. İnsanlar təbiətin oyanmasını hiss edərək baharın gəlişini sevinclə qarşılayırlar.



Torpaq Çərşənbəsində müxtəlif qədim adətlər və ənənələr yerinə yetirilir. Bu çərşənbədə dünyasını dəyişmiş yaxınların məzarları ziyarət olunur, onların ruhu üçün dualar oxunur və məzarların ətrafı təmizlənir. Həmçinin, qohumlara və ehtiyacı olanlara ehsan paylamaq adətdir.

Torpaq Çərşənbəsində evlər təmizlənir, həyətlər abadlaşdırılır. İnsanlar inanırlar ki, təmiz ev bərəkət gətirir və yeni ilin uğurlu keçməsinə səbəb olur.

Torpaq Çərşənbəsi süfrəsi bolluq və məhsuldarlıq rəmzi sayılır. Bu gün süfrəyə yeni həyatın başlanğıcı və bərəkətin rəmzi olan səməni, şirin və firavan həyat arzusu üçün (şəkərbura, paxlava, qoğal), torpağın məhsuldarlığını simvolizə edən qovurğa və buğda xörəkləri qoyulur.

Torpaq Çərşənbəsi Novruz bayramına aparan sonuncu və ən vacib mərhələlərdən biridir. Bu çərşənbə ilə qışla tam vidalaşır, baharı və yeni başlanğıcları qarşılamağa hazırlaşırıq. Qoy bu müqəddəs çərşənbə torpaq kimi bərəkətli, təbiət kimi yenilənmiş, ruh kimi saf və ümid dolu olsun. Qəlbiniz bahar təravəti ilə dolsun, arzularınız tumurcuqlayıb çiçək açsın, hər yeni gün sizə sevinc, firavanlıq və xoşbəxtlik gətirsin.

***Torpaq Çərşənbəniz mübarək!***

## ŞƏXSİYYƏT VƏSİQƏSİNİN DİZAYNI DƏYİŞİR

***Gürcüstanın Ədliyyə naziri Anri Oxanaşvilinin qərarına əsasən, Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsinin, eləcə də müvəqqəti və daimi yaşayış icazəsi sənədlərinin, müvəqqəti elektron identifikasiya vəsiqəsinin dizaynı dəyişdiriləcək.***

Bu, Ədliyyə nazirinin 10 mart tarixli sərəncamında qeyd olunub.

Sənəddə bildirildiyinə görə, bu sərəncam 4 iyun 2025-ci ildən qüvvəyə minəcək. Yeni sərəncamdan əvvəl verilmiş yuxarıda qeyd olunan köhnə vəsiqələr isə qanunvericilikdə müəyyən edilmiş müddətə qədər etibarlı qalacaq.

Bununla yanaşı, nazirin sərəncamında göstərilir ki, vəsiqə üzərində Gürcüstanın dövlət gerbi tam şəkildə, tək rəngdə, eləcə də Gürcüstanın Dövlət Bayrağı əks olunacaq.

Vəsiqənin fon təsvirindəki çap elementləri elə yerləşdirilib ki, fon təsvirinin saxta yollarla dəyişdirilməsi (məsələn, kiçik hissələrə ayrılması) çətin olsun və saxtakarlıqlar asanlıqla aşkar edilsin.

## GÜRCÜSTANIN VƏ AZƏRBAYCANIN MİLLİ BANKLARI ƏMƏKDAŞLIĞIN YENİ MƏRHƏLƏSİNƏ KEÇİB



***Gürcüstan və Azərbaycan arasında ikitərəfli əməkdaşlığı gücləndirmək məqsədilə Gürcüstan Milli Bankı və Azərbaycan Mərkəzi Bankı arasında qarşılıqlı anlaşma memorandumu imzalanıb.***

Bu barədə Gürcüstan Milli Bankı rəsmi məlumat yayıb. Sazişi Gürcüstan Milli Bankının prezidenti Natia Turnava və Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov imzalayıblar.

Memorandum iki ölkənin maliyyə sektorunda tənzimləmə və nəzarət sahəsində əməkdaşlığı nəzərdə tutur. Xüsusilə:

- Maliyyə texnologiyaları (FinTech)
- Pul siyasəti və ödəmə sistemləri
- Qiymətli kağızlar bazarı sahələrində əməkdaşlıq genişləndiriləcək.

Bundan əlavə, tərəflər arasında təcrübə mübadiləsinin gücləndirilməsi və informasiya paylaşımının qarşılıqlı dəstək prinsipi əsasında aparılması nəzərdə tutulur.

N. Turnava: *"İqtisadi əməkdaşlıq və ticarət inkişaf edir, bank sektoru da bu trendləri izləməlidir"*

Gürcüstan Milli Bankının prezidenti Natia Turnava bildirib ki, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin, ticarətin artması fonunda bank və maliyyə sektoru bu inkişaf tempinə uyğunlaşmalıdır.

*"Azərbaycan Mərkəzi Bankı ilə sıx əməkdaşlıq edirik. Ticarət və iqtisadi əlaqələrimiz sürətlə inkişaf edir, bank sektoru da bu tendensiyalara uyğunlaşmalıdır. Azərbaycanlı həmkarımla görüş zamanı aktual istiqamətlərdə əməkdaşlığın gücləndirilməsi barədə razılığa gəldik",* – deyə Turnava bildirib.

Xüsusilə, ödəmə sistemlərinin uyğunlaşdırılması iki ölkə arasında ticarət və maliyyə axınlarını daha sürətli və keyfiyyətli hala gətirəcək.

Bundan əlavə, tərəflər maliyyə texnologiyaları və kibertəhlükəsizlik sahəsində də əməkdaşlığı genişləndirmək niyyətindədirlər.

Turnava vurğulayıb ki, bölgədə ümumi iqtisadi çağırışlar olduğu üçün makroiqtisadi proqnozlar sahəsində də təcrübə mübadiləsi aparmaq mühümdür.

*"Ümid edirik ki, növbəti görüş Tbilisidə keçiriləcək və Azərbaycan Mərkəzi Bankının rəhbərini Gürcüstanda qəbul edəcəyik",* – deyə o əlavə edib.

## Ş. PAPUAŞVİLİ: DAHA ƏVVƏL USAİD, NED VƏ OXŞAR TƏŞKİLATLAR VASİTƏSİLƏ GÖRÜLƏN İŞLƏR, İNDİ DİGƏR TƏŞKİLATLAR TƏRƏFİNDƏN HƏYATA KEÇİRİLİR

***"Gürcüstan xalqına, ölkənin qanuni hökumətinə və ümumilikdə Gürcüstana qarşı diversifikasiya olunmuş hücum həyata keçirilir."***

Bu barədə Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili bəyan edib. Onun sözlərinə görə, bu hücumlar əvvəl USAID, NED və digər oxşar təşkilatlar vasitəsilə baş verirdi, lakin indi bu proseslər Brüssel və ya Aİ - nin müxtəlif paytaxtlarında maliyyələşdirilən qurumlar tərə-findən idarə olunur.



*"Biz bu yaxınlarda gördük ki, əvvəl USAID və NED kimi təşkilatlar vasitəsilə həyata keçirilən fəaliyyətlər, ABŞ-ın yeni administrasiyası tərəfindən fırıldaqçılıq və digər ölkələrdə sabitliyi pozmaq cəhdi kimi qiymətləndirildikdən sonra, indi bu işlər Aİ-nin müxtəlif paytaxtlarında və ya birbaşa Brüsselin maliyyələşdirdiyi təşkilatlar vasitəsilə həyata keçirilir. Hazırda Gürcüstan xalqına, hökumətinə və ölkəyə qarşı genişmiqyaslı hücum baş verir. Biz həmçinin son vaxtlar Gürcüstan müxalifətinə və onların dəstəklədiyi qeyri-hökumət təşkilatlarına təşkil olunan xarici səfərləri də gördük. Bu səfərlərin məqsədi, onlara xüsusi təlimatlar və tapşırıqların verilməsi idi. Bu isə bizim üçün bir sınaqdır. Əgər həqiqətən "Deep State" in məğlubiyyətindən danışırıqsa, o zaman xarici dövlətlərin digər ölkələri sabitsizləşdirmək üçün yaratdığı şəbəkələr tamamilə kökündən çıxarılmalı və bu proses sadəcə rebrendinq olmamalıdır. Yəni, əvvəl USAID adlanan qurumun indi "Avropa Demokratiya Fondu" və ya "Estoniyanın Yardım Təşkilatı" kimi yeni adlar altında fəaliyyət göstərməsi reallığı dəyişdirmir."* – deyə Papuaşvili vurğulayıb.

Parlament sədri əlavə edib ki, bəzi QHT-lər açıq şəkildə "Estonlaşdırılıb" və USAID, NED kimi təşkilatların Gürcüstanda maliyyələşdirdiyi resurslar indi müxtəlif Avropa dövlətlərinin vasitəsilə yönləndirilir.

*"Biz müxalifət və QHT - lərin birlikdə təşkil etdiyi Avropa turunu da gördük. Baltikyanı, Skandinaviya və Böyük Britaniya ölkələrinə səfərlər etdilər. Amma maraqlıdır, bu səfərlər hansı pulla maliyyələşdirildi? Onlar Gürcüstan cəmiyyətinə bu barədə hesabat versinlər! Aviabiletləri kim aldı? Otelləri kim maliyyələşdirdi? Onlar kimin pulları ilə Avropanı gəzir? Kimin pulunu alırlarsa, onların marionetinə çevriliblər. Ona görə də ictimaiyyətə sübut etsinlər və açıqlasınlar ki, kimin dəstəyi ilə hərəkət edirlər."* Papuaşvili, müxalifətin mövqeyini 1921-ci ildə Serqo Orconikidzenin Gürcüstanın müstəqilliyinə qarşı apardığı kampaniya ilə müqayisə edib.

*"1921-ci ildə Serqo Orconikidze nə yazırdısa, indi də eyni sözləri Zurab Caparidze yazır. Əgər o dövrün arxivlərinə baxsaq, açıq-aşkar oxşarlıq görəcəyik. Düzdür, dövrlər dəyişib, amma mahiyyət eynidir. Müxalifət nümayəndələri 21-ci əsrin Orconikidzələridir. Onlar doğulduqları, böyüdükləri ölkəyə qarşı vuruşurlar. Tarix təkrar olunur: 100 il əvvəl Gürcüstan sovet qoşunlarının işğalı ilə idarə olunurdu, indi isə ölkəni iqtisadi sanksiyalar və siyasi təzyiqlərlə boyunduruq altına salmaq istəyirlər. O vaxt Gürcüstanı zorla kommunist beynəlxalqının bir hissəsinə çevirdilər, indi isə ölkəni "liberal beynəlxalqın" bir hissəsinə çevirmək istəyirlər. Əslində, onlar xarici güclərin marionetləridir. O dövrdə işğal silah və tanklarla həyata keçirilirdi, indi isə bu proses sanksiyalar və informasiya müharibəsi vasitəsilə baş verir. Metodlar dəyişib, amma məqsəd eynidir - Gürcüstanda marionet hökumət yaratmaq!"* – deyə Papuaşvili vurğulayıb.

## AĞ EV USAİD PROQRAMLARININ 83 %-NİN FƏALİYYƏTİNİ DAYANDIRIB

***Ağ Ev Beynəlxalq İnkişaf Agentliyinin (USAID) proqramlarının 83 %-nin fəaliyyətini rəsmi olaraq dayandırıb.***

Bu barədə ABŞ dövlət katibi Marko Rubio "X" sosial şəbəkəsində məlumat verib.

"Altı həftəlik yoxlamadan sonra biz rəsmi olaraq USAID proqramlarının 83 %-nin fəaliyyətini dayandırdıq. İndi ləğv edilmiş 5,2 min müqavilə çərçivəsində on milyardlarla dollar ABŞ-nin maraqlarına uyğun olmayan şəkildə xərclənib", - o yazıb. Rubionun sözlərinə görə, qüvvədə qalan USAID proqramlarının (təxminən 1000 proqram) idarə edilməsi ABŞ Dövlət Departamentinə həvalə edilib.

## MARNEULİ, QARDABANİ, SAQARECO, DMANİSİ VƏ AXALKALAKİDƏ RUHANİLƏR ÜÇÜN DÖVLƏT DİLİNİN TƏDRİSİ DAVAM EDƏCƏK

***Gürcüstan Hökumətinin Administrasiyasında Zurab Jvania Dövlət İdarəçilik Məktəbi və Dini İşlər üzrə Dövlət Agentliyi birgə tədbir keçirib.*** Tədbirdə "Ruhanilər üçün dövlət dili" layihəsinin iştirakçılarına sertifikatlar təqdim olunub. Jvania məktəbinin



direktoru Ketevan Cakeli qonaqlar qarşısında çıxış edərək layihənin milli əhəmiyyətini vurğulayıb və bildirib ki, Gürcüstan nadir ölkələr sırasındadır ki, burada dil tədrisi tam dövlət tərəfindən maliyyələşdirilir. Bu, cəmiyyətdə inteqrasiya və qarşılıqlı anlaşmaya təkan verən ölkənin inkişafı üçün çox mühüm addımdır. Layihənin mərhələləri və əldə olunan nəticələrini Dini Agentliyin sədri Zaza Vaşakmadze müsbət qiymətləndirib. O, din xadimlərini fəal iştirakı davam etdirməyə çağırıb. Görüşdə əməkdaşlığın beşinci mərhələsi barədə məlumat verilib. Bildirilib ki, 2025-ci ildə tədris prosesi Tbilisi, Marneuli, Qardabani, Saqareco, Dmanisi və Axalkalakidə həyata keçiriləcək. Xatırlatmaq istərdik ki, 2019-cu ildə Jvania Məktəbi və Dini Agentlik arasında əməkdaşlıq çərçivəsində müxtəlif dini konfessiyalar üçün dövlət dilinin tədrisini nəzərdə tutan çox mühüm layihənin - "Ruhanilər üçün dövlət dili"nin tədrisi həyata keçirilib. İdeyanın həyata keçirilməsi üçün Jvania Məktəbi və Dini Agentlik əməkdaşlıq haqqında memorandum imzalayıb. Bu əməkdaşlıq çərçivəsində 2019-2024-cü illərdə 233 din xadimi dövlət dilini mənimsəyib.

## Sitat guşəsi



"Qlobal güclər Ukraynada proksi (vasitəçilikn müharibəsi) müharibə apardılar. Bunun nəticəsində zəiflədilmiş bir Avropa və tamamilə məhv edilmiş Ukrayna əldə etdilər. Rusiyaya qarşı da müəyyən problemlər yaratdılar. Bu ssenari Gürcüstan üçün fəlakətli olardı və biz məhz buna görə bu prosesə qoşulmaqdan imtina etdik".

**Mamuka Mdinaradze,**
**"Gürcü Arzusu"partiyasının icraçı katibi.**

"Möhkəm, uzunmüddətli və nəzarət olunan sülh planı hazırlanmalıdır. Bu plan ukraynalılar və bir neçə Avropa tərəfdaşımızla birlikdə qurulacaq".



***Emmanuel Makron,***
***Fransanın prezidenti.***



"Prezident Donald Tramp hesab edir ki, bu, uzun müddətdir davam edən və çıxılmaz vəziyyətə düşmüş bir münaqişədir. Düzünü desək, bu, nüvə dövlətləri arasında proksi müharibədir: Ukraynaya kömək edən ABŞ, digər tərəfdən də Rusiya. Buna son qoyulmalıdır".

***Marko Rubio,***
***ABŞ dövlət katibi.***

"Emmanuel Makronun aydın baxışı və sülhə nail olmaq üçün ortaq səylərimizə görə minnətdaram. Sülh sadəcə bir söz deyil, o, real olmalıdır. Bu, Ukraynanın kapitulyasiyası və ya parçalanması mənasına gələ bilməz".



***Volodimer Zelenski,***
***Ukraynanın Prezidenti.***



"Mənim 'Starlink' sistemim Ukrayna ordusunun özəyidir. Onu söndürsəm, onların bütün ön xətti çökəcək".

***İlon Mask,***
***Amerikalı milyarder,***
***"Space X" şirkətinin qurucusu.***

"Lari hazırda sabit məcrada hərəkət edir və dəyər itirəcəyi gözlənilmir. Bunun əsas səbəblərindən biri Gürcüstan iqtisadiyyatının yüksək artım tempidir. Eyni zamanda, yaxın dövrdə xarici bazarlardan gələn hər hansı neqativ təsir də gözlənilmir".



***Qiorqi Tsutskiridze,***
***Gürcüstanlı iqtisadçı.***

## REGİON XƏBƏRLƏRİ

### RUSTAVİ: "ŞƏHƏRİNİ İDARƏ ET" ADLI TƏLƏBƏ PROQRAMININ YENİ MƏRHƏLƏSİ BAŞLAYIB



***Gənclərin işlə təmin olunması və bələdiyyə işinə cəlb edilməsi məqsədi daşıyan layihə artıq dördüncü ildir ki, həyata keçirilir və layihə çərçivəsində artıq 30 rustavili gənc Meriyanın müxtəlif şöbələrində işlə təmin olunub.***

Rustavi meri Nino Latsabidze layihənin səkkizinci mərhələsinin iştirakçıları ilə görüşüb.

Şəhər meri tələbələri bələdiyyədə həyata keçirilən və aparılan islahatlarla tanış edib.

Layihədə iştirak edən 35 tələbə bir ay ərzində bələdiyyə xidmətlərinin işinin xüsusiyyətləri və islahatlar nəticəsində tətbiq edilən yeni xidmətlər haqqında məlumat əldə edəcəklər.

Tələbə təcrübə proqramında iştirak onlayn qeydiyyat yolu ilə həyata keçirilir.

### Marneuli: MER KƏNAN ÖMƏROV "KESANE" REABİLİTASİYA VƏ İNKİŞAF MƏRKƏZİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜB



***Görüş zamanı tərəflər xüsusi qayğıya ehtiyacı olan şəxslərin psixososial reabilitasiyası və onların ailələrinə dəstək sahəsində əməkdaşlıq imkanlarını müzakirə edib, nəzəri və praktiki təcrübənin yerli mütəxəssislərlə bölüşdürülməsindən danışıblar.***

Qeyd edək ki, "Kesane" Mərkəzi xüsusi qayğıya ehtiyacı olan şəxslərə bacarıqların inkişafı, erkən diaqnoz və reabilitasiya xidmətləri təklif edir.

Marneulinin meri Kənan Ömərov təşəbbüsün əhəmiyyətini vurğulayaraq bildirib ki, sağlamlıq imkanları məhdud olan şəxslərin lazımi xidmətlərdən istifadə imkanlarının genişlənməsi üçün bələdiyyə bu prosesi dəstəkləməyə hazırdır.

### Qardabani: UŞAQ VƏ İDMAN MEYDANÇALARININ TƏŞKİLİ ÜZRƏ İŞLƏR SÜRƏTLƏ DAVAM ETDİRİLİR



***Bələdiyyənin meri David Karqareteli, Şəhər Şurasının sədri Mixeil Gedexauri, birinci müavin Samir Xiyalov, müavini Zaza Oniani, infrastruktur, tikinti və ərazi planlaşdırma xidmətinin rəhbəri Qoça Axalkatsişvili şəhərdə uşaq və idman meydançalarının tikintisi ilə tanış olublar.***

Qardabani şəhərinin Energetiklər küçəsində iki uşaq meydançası və mini stadionda tikinti işləri aparılır. Layihə çərçivəsində ərazi hasarlanacaq, dekorativ plitələr döşənəcək, uşaq əyləncə attraksionları yerləşdiriləcək, müvafiq avadanlıqlar quraşdırılacaq. David Ağmaşenebeli küçəsində həm futbol, həm də basketbol oynamaq üçün nəzərdə tutulmuş və müvafiq avadanlıqla təchiz olunmuş müasir, süni örtüklü idman meydançasının tikintisi başa çatdırılmışdır. Ninoşvili küçəsində yerləşən meydançanın abadlaşdırılması işləri də yekunlaşıb.

Layihələrin ümumi dəyəri 410.000 laridən çoxdur və yerli büdcədən maliyyələşdirilir.

### Dmanisi: UĞURLU QADINLAR TƏBRİK OLUNUB



Dmanisi Bələdiyyəsinin meri Koba Muradaşvili müavinləri Arif Süleymanov, Kaxa Petriaşvili və Şəhər Şurasının sədri Paata Kuliaşvili ilə birlikdə bələdiyyədə yaşayan, müxtəlif sahələrdə çalışan uğurlu qadınları və "Beynəlxalq Qadınlar Evi"ni 8 Mart münasibətilə müxtəlif hədiyyələrlə təbrik edib.

### Bolnisi: BUBA QOBECİŞVİLİ İDMANÇILARI TƏBRİK EDİB

***Mer vəzifəsinin icraçısı Buba Qobecişvili Bolnisi İdman-İstirahət Kompleksinin nümayəndələri ilə birlikdə voleybolçu qızları və onların məşqçilərini 8 Mart münasibətilə təbrik edib.***



Maraqlıdır ki, Bolnisinin qızlardan ibarət komandası cari ilin fevral ayında Gürcüstan Milli Voleybol Federasiyasının təşkilatçılığı ilə keçirilən Gürcüstan Milli Çempionatında qar üstündə voleybol üzrə üçüncü yeri qazanıb. Buba Qobecişvili idmançıları qazandıqları uğurlar münasibətilə təbrik edib və onlara davamlı inkişaf arzulayıb.

## BEYNƏLXALQ HƏYAT

### DONALD TRAMP: "YA İRAN ABŞ İLƏ SAZİŞ BAĞLAYACAQ, YA DA TEZLİKLƏ NƏ İSƏ BAŞ VERƏCƏK"



***"Tehran ya Vaşinqtonla razılığa gəlməlidir, ya da yaxın gələcəkdə bunun nəticələri ilə üzləşməlidir".***

Bunu ABŞ Prezidenti Donald Tramp Oval kabinetdə jurnalistlərlə söhbəti zamanı deyib.

*"Bizdə İranla bağlı belə bir vəziyyət yaranıb və çox yaxında nə isə baş verəcək. Ümid edirəm ki, bu, sülh sazişi olacaq, lakin digər variant da problemi həll edəcək"*, - deyə o bildirib.

O, ABŞ-nin konkret hansı addımlar ata biləcəyini açıqlamayıb, lakin vurğulayıb ki, Vaşinqton Tehranla münasibətlərdə mövcud vəziyyətlə barışmaq niyyətində deyil.

### UKRAYNA 30 GÜNLÜK ATƏŞKƏSƏ RAZILAŞIB



***Səudiyyə Ərəbistanının Ciddə şəhərində Ukrayna və ABŞ nümayəndə heyətlərinin görüşü başa çatıb. Ukrayna prezidentinin internet saytında Səudiyyə Ərəbistanında ABŞ ilə danışıqların yekunlarına dair bəyanatda deyilir ki, rəsmi Kiyev Vaşinqtonun Rusiya və Ukrayna tərəflərinin qarşılıqlı razılaşması ilə uzadılan 30 günlük dərhal müvəqqəti atəşkəs rejiminin tətbiqi təklifini qəbul edib.***

Birləşmiş Ştatlar kəşfiyyat məlumatlarının mübadiləsində fasiləni dərhal aradan qaldıracaq və Ukraynaya təhlükəsizlik yardımını bərpa edəcək. Hər iki nümayəndə heyəti danışıqlar aparan qrupların tərkibini müəyyən etmək və sülhə nail olmaq üçün dərhal danışıqlara başlamaq barədə razılığa gəliblər. Prezident aparatının rəhbəri Andrey Yermak yazıb: "Birləşmiş Ştatlar Rusiyaya deyəcək ki, onun tərəfində qarşılıqlılıq sülhə nail olmaq üçün açardır".

O, əlavə edib ki, ABŞ Rusiya nümayəndələri ilə "konkret təklifləri müzakirə etmək öhdəliyi götürüb". Ukrayna nümayəndə heyəti avropalı tərəfdaşların sülh prosesinə cəlb edilməli olduğunu vurğulayıb. *"Hər iki ölkənin prezidentləri Ukraynanın mühüm mineral ehtiyatlarının işlənməsinə dair hərtərəfli sazişin tezliklə bağlanması barədə razılığa gəliblər"*, - görüşün yekunlarına dair bəyanatda belə deyilir.

Rusiyanın belə şərtlərlə razılaşıb-razılaşmadığı hələlik bəlli deyil. Donald Trampın milli təhlükəsizlik üzrə müşaviri Mişel Valtz yaxın günlərdə Rusiya nümayəndəsi ilə əlaqə saxlayacağını bildirib. ABŞ dövlət katibi Marko Rubio bildirib ki, Vaşinqton indi Moskvadan atəşkəs təklifinə "mümkün qədər tez" müsbət cavab gözləyir.

### FRANSA RUSİYANIN AKTİVLƏRİ HESABINA UKRAYNAYA HƏRBİ YARDIM GÖSTƏRƏCƏK



***Fransa Ukraynaya 195 milyon avro dəyərində yeni hərbi yardım paketini təqdim edəcək.*** Bu vəsaitin dondurulmuş Rusiya aktivlərindən əldə olunan gəlirlə ödənilməsi planlaşdırılır.

Bu barədə Fransa müdafiə naziri Sebastyan Lekornu "La Tribune Dimanche" nəşrinə müsahibəsində bildirib.

Fransa Ukraynaya 155 mm-lik artilleriya mərmiləri və "Mirage 2000" döyüş təyyarələri üçün AASM idarə olunan aviasiya bombaları göndərəcək.

Bundan əlavə, Fransa "AMX-10RC" tipli yüngül tanklar və VAB zirehli transportyorlarının tədarükünü sürətləndirəcək. Bu texnika əvvəllər Fransa Silahlı Qüvvələri tərəfindən istifadə olunurdu.

Nazirin sözlərinə görə, Fransa yalnız Ukraynanın deyil, öz ordusunun da hərbi texnika təminatını gücləndirəcək:

- Dassault Aviation şirkəti 2024-cü ildə ayda 2 ədəd Rafale döyüş təyyarəsi istehsal edirdisə, 2026-cı ilə qədər bu rəqəmi 4-5 vahidə çatdıracaq.
- AASM aviasiya bombalarının istehsalı 2026-cı ilə qədər ikiqat artırılacaq.
- 2025-ci ildən MBDA şirkəti Akeron MP tank əleyhinə raketlərinin istehsalını ikiqat artıracaq.

### SURİYADAKI TOQQUŞMALARDA 830 MÜLKİ VƏTƏNDAŞ ÖLÜB

***Suriyanın Latakiya, Tartus və Homs əyalətlərində keçid hökumət qüvvələri ilə üsyançılar arasında hərbi əməliyyatlar nəticəsində 830 mülki vətəndaş ölüb.***

Bu barədə İraqın "Shafaq news" xəbər portalı məlumat yayıb.

Qeyd olunub ki, keçid hökumət qüvvələri sahilyanı ərazilərə nəzarəti bərpa edib və dağlarda keçmiş prezident Bəşər Əsədin silahlı tərəfdarlarını təqib edir.

İranın "Tasnim" xəbər agentliyi isə Suriyanın sahilyanı bölgəsində ələvilərin qətlə yetirildiyini yazıb.

Martın 6-dan bəri davam edən əməliyyat zamanı 250-dən çox üsyançı öldürülüb. Suriya hökumət qüvvələri isə 231 döyüşçüsünü itirib.



# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**GÜYƏMƏ** *is. bot.* Qısa saplaqları, uzunsov yarpaqları olan kol sarmaşığı.

**GÜYÜM** *is.* Su daşımaq və ya saxlamaq üçün boğazı uzun, iri qulplu, mis qab; mis səhəng.

*O biri uşaqlar məktəbə həftədə iki güyüm su versəydilər, Ağabala beş-altı güyüm verərdi.*

Çəmənzəminli.

[Ruqiyyə] *əl və üzünü yumuş, qızılgül kimi təzə və tər, su güyümü çiynində gəldi.*

A. Divanbəyoğlu.

**GÜZ** *is. köhn.* 1. Payız.

*Güz almasıtək al yanaqlum…*

"Dədə Qorqud".

2. *məh.* İki əkin sahəsi arasında sərhəd; şumlanıb qalan yer.

**GÜZAR** *is. [ fars. ] klas.* Yol, keçid, keçmə.

*Gecə-gündüz duam budur Tanrıma,*
*Nola səni sala bir güzarıma.*

M. P. Vaqif.

**Güzar etmək** *klas.* – keçmək, getmək.

*Ol güli-xəndanı görmək mümkün olsaydı mənə.*
*Səntək, ey bülbül, gülüstanə güzar etməzmidim?*

Füzuli.

**Güzarı düşmək** – yolu düşmək.

*Müşk adında bir pəhləvan yolla gedəndə güzarı düşür qalaçaya.*

(Nağıl).

**GÜZARİŞ** *is. [fars.] klas.* 1.Hadisə, vaqiə, əhvalat.

[Divanbəyi:] *Zahirən görünür ki, Bayram müqəssir deyil, əgərçi güzariş onun təqsirinə çox dəlalət edirdi.*

M. F. Axundzadə.

2. Göstəriş, əmr. *Güzariş vermək.*

**GÜZDƏK** *is.* Payızda göyərən ot, payız otu.

*Qoyunlar payızın güzdək otundan ağızdolusu götürüb xoşallanırdılar.*

S. Rəhimov.

*Nəmişlik olduğundan güzdək dizə çıxırdı.*

Ə. Vəliyev.

//Payız otlağı. *Qaraca çoban dəstəsilə gəlib güzdəyə çatanda, ona söylədilər ki, anası, bacıları gəlib qardaşlarının meyitlərini obaya aparmışlar.*

M. Rzaquluzadə.

**GÜZDƏKLƏŞMƏK** *f.* Payızda ot göyərmək.

**GÜZƏM** *is.* Yayın ikinci yarısında qırxılan qoyun yunu.

// Quzu yunu. *Nəcəfalının əynində güzəmdən toxunmuş şalvardan, çit köynəkdən başqa heç nə yox idi.*

B. Bayramov.

**GÜZƏRAN** *is. [ fars. ]* Dolanacaq, dirilik, yaşayış, həyat.

*Məktəbdə Səlimin güzəranı çox da gözəl keçməyirdi.*

İ. Musabəyov.

[Nəbi:]

*Nədir bu güzəran, nədir bu həyat?*
*Xalqa divan tutur bir yığın cəllad!*

S. Rüstəm.

**Güzəran etmək** – dolanmaq, yaşamaq, keçinmək.

*Kəndin camaatı hamısı maldarlıqla güzəran edir.*

Ə. Haqverdiyev.

*Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzəran edərdi.*

S. S. Axundov.

**GÜZƏRANLI** *sif.* 1. Bu və ya başqa cür güzəran keçirən, dolanacağı, həyatı olan. *Pis güzəranlı. Yaxşı güzəranlı. Xoş güzəranlı.*

2. Həyatı yaxşı keçən, firavan yaşayan.

*Bulağın hər iki tərəfinin lap güzəranlısı (is.) belə ancaq qonaq olan zaman ağ dəmir çıraq yandırardı.*

S. Rəhimov.

// Güzəranı, həyatı yaxşı olan, varlı; yaşayışında çətinlik çəkməyən. *Güzəranlı adam.*

**GÜZƏRGAH** *is. [ fars. ] klas.* Keçilən yer, keçid, yol.

*Gəzmə, ey könlüm quşu, qafil fəzayi-eşqdə,*
*Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.*

Füzuli.

// Gəzinti yeri, gəzmək üçün yer.

*Professor Kəngərli gün batıb sadaq qalxana qədər sahil güzərgahında tənha gəzdi.*

B. Bayramov.

**GÜZƏŞT** *is. [fars.]* Başqasının xeyrinə olaraq bir şeydən və ya öz fikrindən əl çəkməyə razılaşma, əl çəkmə.

//Alış-verişdə qiyməti aşağı salma.

//Bağışlama, keçmə (borc, günah haqqında).

**Güzəşt etmək (eləmək)** – 1) bax **güzəştə getmək** 1-ci mənada.

[Nərgiz:] *Mən səadəti öz doğma bacıma güzəşt eləyə bilmədim…*

B. Bayramov.

2) alış-verişdə qiyməti aşağı salmaq.

[Konduktor] *uzaqdan gələn yolçulara, görünür, güzəşt edirdi.*

Qantəmir.

3) *köhn.* keçmək, ötmək.

*Altmışı sinnim eləyibdir güzəşt.*

Ə. Nəzmi.

4) bağışlamaq, təqsirindən keçmək. *Uşağa güzəşt etmək.*

–[Nazir:] *Fəqət mən bu dəfəlik sizə güzəşt edirəm.*

S. Hüseyn.

**Güzəştə getmək** – 1) başqasının xeyrinə bir şeydən əl çəkmək.

*Rəşid atasının kövrəldiyini və danışarkən səsinin titrədiyini hiss edib, istər-istəməz güzəştə getdi…*

M. Hüseyn;

2) bax **güzəşt etmək** 2 və 3-cü mənalarda. *Qiymətdə güzəştə getmək.*

**GÜZƏŞTLİ** *sif.* Güzəşt ilə olan, güzəşt ilə satılan, nisbətən ucuz. *Güzəştli mövsümi bilet. – Yanvarın 1-dən etibarən şəhərlərarası telefon danışıqları üçün yeni güzəştli qiymətlər müəyyən edilir.*

**GÜZGÜ** *is.* 1. Qarşısındakı şeylərin şəkillərini əks etdirən, xüsusi surətdə pardaqlanmış şüşə lövhə; ayna. *Bədənnüma güzgü. Cib güzgüsü.*

*Bir güzgüyə gər açıb gözünü,*
*Güzgüdə görəydi öz-özünü.*

Füzuli.

2. *məc.* Hər hansı hadisəni, prosesi özündə əks etdirən şey. *Folklor xalqın həyatının güzgüsüdür.*

*Şairin şeiri yaşadığı xalqın simasını göstərən bir güzgü olmalıdır.*

M. S. Ordubadi.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!



***Hörmətli oxucular!***

Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

**მიწის ჩარშანბა ან ბოლო ჩარშანბა —** (Mitsis çarşanba an bolo çarşanba)

**Torpaq çərşənbəsi və ya ilaxır çərşənbə**

**მიწის ჩარშანბა ნოვრუზის ბოლო, მეოთხე ჩარშანბაა.** (Mitsis çarşanba novruzis bolo, meotxe çarşanbaa) **– Torpaq çərşənbəsi Novruz bayramının sonuncu, dördüncü çərşənbəsidir.**

**ამ დღეს მიწა იღვიძებს, ბალახი იზრდება, ხეები ყვავილობენ, რაც გაზაფხულის მოახლოებას ნიშნავს.** (Am dğes mitsa iğvidzebs, balaxi izrdeba, xeebi ğvaviloben, rats qazapxulis moaxlobebas nişnavs) **– Bu gün torpaq oyanır, otlar cücərir, ağaclar çiçək açır ki, bu da baharın yaxınlaşdığını bildirir.**

**ბოლო ჩარშანბაში ეზოები და ბაღები დამუშავდება, სახლებში სუფრას ხორბლის მწვანე ყლორტი – სემენი ამშვენებს, რაც ბუნების გაღვიძების სიმბოლოა.** (Bolo çarşanbaşi ezoebi da bağebi damuşavdeba, saxlebşi supras semeni amşvenebs, rats bunebis gağvidzebis simboloa) **– Axır çərşənbədə həyət-bacalar əkin üçün hazırlanır, evlərdə süfrəni təbiətin oyanışının rəmzi olan səməni bəzəyir.**

**ამ დღეს კოცონი უნდა გადავახტეთ და ვთქვათ: „ჩემი სევდა ცეცხლს წაეღოს".** (Am dğes kotsoni unda qadavaxtet da vtkvat: „Çemi sevda tsetsxls tsaeğos") **– Bu gün tonqalın üstündən atılaraq "Ağırlığım odda yansın" demək lazımdır.**

**არსებობს რწმენა, რომ თუ ბოლო ჩარშანბა ნოვრუზს დაემთხვევა, წელი წარმატებული იქნება.** (Arsebobs rtsmena, rom tu bolo çarşanba novruzs daemtxvexa, tseli tsarmatebuli ikneba) **– İnanclara görə, əgər Axır çərşənbə Novruza təsadüf edərsə, il uğurlu keçəcək.**

**ამ საღამოს სადღესასწაულო სუფრა იშლება, ცხვება ტკბილეული და მზადდება ხონჩა, რომლის ცენტრში სემენი დევს.** (Am sağamos sadğesastsaulo supra işleba, tsxveba tkbileuli da mzaddeba xonça, romlis tsentrşi semeni devs) **– Bu axşam bayram süfrəsi açılır, şirniyyat bişirilir və ortasında səməni olan xonça hazırlanır.**

**ბოლო ჩარშანბას ხალხი იღებს მონაწილეობას „ჩუმად კართან მოსმენაში", რათა მომავალ წელს მათი ბედი გაიგონ.** (Bolo çarşanbas xalxi iğebs monatsileobas „çumad kartan mosmenaşi", rata momaval tsels mati bedi qaiqon) **– Axır çərşənbədə insanlar qulaq falına çıxaraq gələn il onları nələrin gözlədiyini öyrənməyə çalışırlar.**

**ამიტომ ამ საღამოს მხოლოდ კარგი სიტყვები უნდა ითქვას.** (Amitom am sağamos mxolod karki sitğvebi unda itkvas) **– Buna görə də bu axşam yalnız xoş sözlər danışılmalıdır.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

*10 mart 2025-ci il* **"SAKARTVELOS RESPUBLİKA"**

### "Bakuriani -2025" in gümüş sikkələri

Gürcüstan Milli Bankı "Bakuriani-2025" Gənclər Avropa Qış Olimpiya Festivalına həsr olunmuş kolleksiya sikkəsinin satışına başlayır.

Gürcüstan Milli Bankının məlumatına görə, sikkənin satış qiyməti 110 laridir.

Sikkələr 10 mart 2025-ci il saat 10:00-dan etibarən **www.tkt.ge** elektron platformasında və Gürcüstan Milli Bankının kassalarında satılır. 13 mart 2025-ci il tarixindən etibarən sikkənin satıla bilən tədarükü varsa, onun kassaları ilə paralel satışı Gürcüstan Milli Bankının sikkə Muzeyinin onlayn mağazasından da davam etdirilir. Mümkün qədər çox maraqlı tərəfin sikkəni ala bilməsini təmin etmək üçün bir müştəri satışın başlanmasından sonra ilk 5 gün ərzində yalnız bir sikkə ala biləcək.

Sikkənin dizayn eskizi "Bakuriani - 2025" in Təşkilat Komitəsi ilə əməkdaşlıqda hazırlanıb və sikkələr Polşa Sikkəxanasında 5000 tirajla zərb edilib.

Sikkənin üz tərəfində qarlı dağ fonunda xizəkçi və nominalda "5 GEL" (rəngli detallar) təsvir edilmişdir. Tədbiri qeyd edən "Avropa Gənclərinin Qış Olimpiya Festivalı" və "Bakuriani - 2025" yazıları sikkənin qar dənəcikləri ilə ayrılmış kənarında qövs şəklində yazılmışdır.

Sikkənin arxa tərəfində qarlı dağ fonunda festivalın loqosu (rəng detalı) və onların arasında qar dənəcikləri olan gürcü və inglis dillərində "Gürcüstan" yazısı təsvir edilib. Gürcüstan Milli Bankı "Bakuriani-2025" Avropa Qış Gənclər Festivalının Təşkilat Komitəsinə bu təşəbbüsə və sikkənin dizayn eskizini təqdim etdiyinə görə təşəkkür edir.

### Gürcüstan İncəsənət Sarayına "Məsihin dörd həvarisi" və "Güldandakı çiçəklər" natürmortu əlavə olunub

"Mədəniyyət Tarixi Muzeyinin təsviri sənət kolleksiyasına Qərbi Avropa incəsənətinin üç əsəri əlavə edilib - XVI əsrə aid iki "Məsihin dörd həvarisi" tablosu və "Güldandakı çiçəklər" natürmortu", - İncəsənət Sarayının məlumatında deyilir.

"Gürcüstanın mədəniyyət naziri Tinatin Ruxadze İncəsənət Sarayının direktoru Qiorqi Kalandia ilə birlikdə muzey kolleksiyalarının zənginləşdirilməsi proqramı çərçivəsində Gürcüstana qaytarılan rəsmlərə baxış keçirib.

Gürcüstan Mədəniyyət Nazirliyi 2024-cü ilin sonunda İtaliyada naməlum venesiyalının 16-cı əsrə aid "Məsihin dörd həvarisi" əsərini və 17-ci əsrin Hollandiya məktəbinin əsəri olan "Güldandakı çiçəklər"i isə Belçikada əldə edib.

1921-ci ilə qədər hər üç əsər Gürcüstanda olub. Sovet işğalından sonra Oldenburq kolleksiyasında olan "Məsihin dörd həvarisi" daha sonra İtaliyada peyda olub. Sözügedən əsər bir panelin iki hissəsidir. Rəsm bərpaçılar tərəfindən yoxlanıldıqdan sonra İncəsənət Sarayının Qotik zalında sərgilənəcək. XVII əsrə aid Hollandiya məktəbinin əsəri "Güldandakı çiçəklər"ə gəlincə, rəsm ilkin təmizlənmədən keçib və İncəsənət Sarayının sərgi meydançasında nümayiş etdiriləcək.

Gürcüstan Mədəniyyət Nazirliyi muzey kolleksiyalarının zənginləşdirilməsi proqramına maliyyə dəstəyini davam etdirir", - deyə məlumatda qeyd olunur.

*10 mart 2025-ci il* **"REZONANS"**

### Bütün qurumlar normal fəaliyyət göstərir, ölkədə siyasi böhrandan əsər-əlamət yoxdur - Paata Salia

"Bu gün Gürcüstanda heç bir böhran yoxdur, bilmirən, İsveç Xarici İşlər Nazirliyi ya da onlara birbaşa göstəriş verən şəxslər ("dərin dövlət"i və onun üzvlərini nəzərdə tuturam) böhran deyəndə nəyi nəzərdə tuturlar", - bu barədə Parlament çoxluğunun üzvü Paata Salia jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, Gürcüstanda müxalifətin seçicisi qalmayıb və məhz buna görə də onlar indi keçiriləcək yerli seçkilərdə iştirakdan imtina edirlər.

"Biz görürük ki, dövlətdə bütün qurumlar normal fəaliyyət göstərir. Ölkədə siyasi böhrandan əsər-əlamət yoxdur. Bizdə tamamilə talan edilmiş müxalifət var. Əminəm ki, onun seçicisi qalmayıb və faktiki olaraq, ona görə də keçiriləcək yerli seçkilərdə iştirakdan imtina edirlər. Bunu hər axşam Rustaveli prospektində gördüyümüz etiraz növü də sübut edir - bir neçə yüz nəfər etiraz edir və yeni seçkilərin keçirilməsini tələb edir.

Kimsə seçicilərinin olduğunu və hər hansı siyasi prosesdə iştirak etmək gücü olduğunu sübut etmək istəyirsə, payıza təyin olunmuş seçkilərdə iştirak etsin", - deyə Paata Salia bəyan edib.

ВСЕ НОВОСТИ НА 24 СТРАНИЦАХ И ПРОГРАММА ТВ! + вся ГРУЗИЯ
Вечерний Тбилиси

*7-13 mart 2025-ci il* **"VEÇERNİY TBİLİSİ"**

### Vahid Milli İmtahanlar - 2025: qeydiyyat başlayıb

2025-ci ilin Vahid Milli İmtahanları, Vahid Magistratura İmtahanı və tələbə qrant müsabiqəsinə qeydiyyat martın 5-də başlayıb və aprelin 2-də saat 18:00-da başa çatacaq.

Bu barədə Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin direktoru Nino Tsereteli brifinqdə məlumat verib. Onun sözlərinə görə, aprelin 2-si saat 18:00-dək imtahanlarda iştirak üçün qeydiyyat haqqını ödəyib, müəyyən səbəblərdən qeydiyyat prosesini başa çatdıra bilməyən abituriyentlər aprelin 10-u saat 18:00-dək qeydiyyatdan keçmək imkanı əldə edəcəklər.

Qeydiyyatdan keçmək istəyənlər builki imtahanlarda iştirak etmək məqsədilə bu proses üçün müəyyən edilmiş son tarixləri və prosedurları nəzərə almalıdırlar.

Bu il müəllim imtahanında iştirak etməyi planlaşdıranlar üçün qeydiyyat tarixləri daha sonra açıqlanacaq.

"Qeydiyyat **online.naec.ge** saytında mümkün olacaq.

Vahid Milli İmtahanlara qeydiyyatdan keçmək istəyənlər nəzərə almalıdırlar ki, bu il də qeydiyyat prosesi bir neçə mərhələdən ibarətdir:

•Əsas mərhələdə - 2 aprel saat 18:00-dək abituriyent qeydiyyat rüsumunu ödəməli, şəxsi məlumatlarını doldurmalı, imtahanın veriləcəyi şəhəri və keçəcəyi fənləri seçməlidir. Abituriyentlər aprelin 10-da saat 18:00-dək fənni dəyişdirə və ya əlavə edə bilər, həmçinin imtahan dilini dəyişə biləcəklər. Həmin vaxta qədər onların imtahan verəcəyi şəhəri dəyişmək imkanı da olacaq;

•Qeydiyyatdan keçmiş abituriyentlər təhsil proqramlarının prioritet siyahısını dəfələrlə dəyişə biləcəklər. Onlar apellyasiya nəticələrinin dərc edildiyi gündən etibarən onları seçə, silə və köçürə biləcəklər. Konkret tarix **www.naec.ge** saytında dərc olunacaq", - deyə Nino Tsereteli bildirib.

## SAĞLAMLIĞIMIZI QORUYAQ

# YÜKSƏK QAN TƏZYİQİNİ AZALDAN 6 QİDA MƏHSULU

### BADAM, BİBƏR, KOKOS SÜDÜ, ÇİY KAKAO, ZƏRDƏÇAL (KURKUMA), DARÇIN

*(Əvvəli ötən sayımızda)*

**Kokos (Hind cevizi) südü**

Hind cevizi südü, vətəni Malayziya, Cənubi Asiya, Filippin, Hindistan və Şri-Lanka olan kokos xurma ağacının meyvəsi olan kokosdakı mayaya deyilir. Yayğın məlumata əsasən, bitkinin adı portuqalcadır və "meymun" kimi tərcümə olunur. Belə adlanmanın səbəbi, meyvənin əsasını təşkil edərək onu meymunun üzünə bir qədər bənzədən dəliklərə görədir.



Hind cevizi südü yetişmiş kokos pulpasından əldə edilən ağ, qeyri-şəffaf mayedir. Hind cevizi südünün qeyri-şəffaflığı və zəngin ləzzəti onun tərkibindəki çox miqdarda doymuş yağdan irəli gəlir. Sözügedən maya, emulqator və qatılaşdırıcı kimi fəaliyyət göstərən zülallarla suyun tərkibindəki yağın nisbətən sabit emulsiyasıdır. O, qeyri-şəffaf, südə bənzər, ağ rəngdədir, konsistensiyası suyuqluqdan qatılığa qədər dəyişir. Yağ tərkibindən asılı olaraq, kokos südü ən çox yağ olan kokos kreminə (və ya qalın kokos südü), maksimum yağ tərkibi təxminən 20% olan kokos südünə (və ya maye hind cevizi südü) və kokos yağsız südünə bölünür. Hind cevizi südü çoxlu doymamış yağ turşularının, vitaminlərin və mikroelementlərin yüksək tərkibinə malik yüksək kalorili məhsuldur.

Tərkibində B, C, A, PP vitaminləri; kalium, maqnezium, manqan, fosfor, sink, natrium, selenium, dəmir kimi minerallar; faydalı pəhriz lifi var.

Hind cevizinin tərkibindəki vitaminlər onun faydalı xüsusiyyətlərini müəyyən edir: tiamin (B1) – metabolik proseslərdə iştirak edir, həyati vacib orqanların işini dəstəkləyir, sinir sisteminə faydalı təsir göstərir; xolin (B4) – beyin funksiyasını və yaddaşı yaxşılaşdırır; pantotenik turşu (B5) - hormonal fəaliyyəti stimullaşdırır, lipid mübadiləsində iştirak edir; piridoksin (B6) - sinir impulslarının ötürülməsini təşviq edir, hemoqlobinin hüceyrələrə çatdırılmasını yaxşılaşdırır; fol turşusu (B9) - bədəndə yenilənmə proseslərini aktivləşdirir; askorbin turşusu (C) - güclü bir antioksidan, immunomodulyator; nikotinik turşu (PP) - toxuma tənəffüsündə, zülal və yağ mübadiləsində iştirak edir.

Kalium, elektrolitlər və digər vacib qidalarla zəngin olan kokos südünün qan təzyiqini əhəmiyyətli dərəcədə aşağı salmağa kömək etdiyi sübut edilmişdir. Son tədqiqatlar göstərdi ki, kokos südü içmək iştirakçıların 71% -ində sistolik təzyiqi əhəmiyyətli dərəcədə azaldıb, diastolik təzyiq isə iştirakçıların 29% -ində əhəmiyyətli dərəcədə azalıb.

Yuxarıda göstərilənlərə əlavə olaraq, bildiririk ki, bu məhsul tiroid bezinin funksionallığını normallaşdırır; qanda şəkərin səviyyəsini sabitləşdirir; ürək əzələsinin işini yaxşılaşdırır; bədxassəli şişlərin inkişaf riskini azaldır; anti-allergik xüsusiyyətlərə malikdir; xolesterinin səviyyəsini aşağı salır, damar yatağını xolesterin lövhələrindən təmizləyir, piylənmədən əziyyət çəkən insanlarda infarkt və insult riskinin qarşısını alır.

Məhsul xroniki yorğunluq sindromunu, apatiyanı aradan qaldırır, sinir gərginliyinin, stressin və depressiyanın təzahürlərini azaldır.

Kokos südünün faydalı xüsusiyyətləri ilə yanaşı, əks göstərişləri də var. Bu məhsulu aşağıdakı hallarda qəbul etməməlisiniz: fərdi dözümsüzlük; fruktoza dözümsüzlüyü; bağırsaq pozğunluqları (ishal, qəbizlik); 2 yaşa qədər uşaqlar;. hipertansiyon üçün; mədə xorası və duodenal xoranın kəskinləşməsi. Allergik reaksiyaların qarşısını almaq üçün bu məhsulun istehlak standartlarını da nəzərə almaq lazımdır.

# "OSKAR" MÜKAFATININ QALİBLƏRİ MƏLUM OLDU



ABŞ-nin Los-Anceles şəhərində Amerika Kino Akademiyasının sayca 97-ci "Oskar" mükafatlandırma mərasimi baş tutub.

İlin ən yaxşı filmi nominasiyasına Şon Beykerin "Anora" adlı bədii filmi layiq görülüb.

Mayki Medisonun baş rola çəkildiyi film Brayton-Biçdə seks işçisi olan bir rusdilli qadının acı taleyindən bəhs edir.

Aktrisa, eyni zamanda, ən yaxşı qadın obrazı nominasiyasında "Oskar" mükafatına layiq görülüb. Filmin rejissoru Şon Beyker isə ən yaxşı rejissor seçilib.

Adıçəkilən kinodram, bundan başqa, ən yaxşı orijinal ssenari və ən yaxşı montaj nominasiyalarının qalibi olub. Flm ümumilikdə 5 "Oskar" heykəlciyinə yiyələnib.

Ən yaxşı aktyor nominasiyasında "Brutalist" filində canlandırdığı yəhudi əsilli memar obrazına görə Edrion Brodi layiq görülüb. Ən yaxşı ikinci dərəcəli aktrisa və aktyor nominasiyalarında isə müvafiq olaraq Zoy Saldana və Kyiran Kalkin qalib gəliblər.

17 MART QALAKTİON TABİDZENİN ANIM GÜNÜDÜR

# QARDAŞIM QALAKTİON

(esse)

Vaqif Bayatlı "Mən zalım adamam, kamança" adlı şeirində "qardaşım ağaclar, bacım çiçəklər" deyir, ayrı bir şeirində də ayrıca "qardaşım torpaq" deyir.

*Keçib gəldiyi*
*göyüzü kimidir şairin üzü –*
*işığı saralar, buludu keçər.*
*hər gün könlümüzdən, ürəyimizdən*
*göyüzünə dönmək ümidi keçər.*

Vaqif bəy mənim ədəbiyyata "qardaşım ədəbiyyat" dediyimi bilir. "Xəzər" jurnalında çıxan yazılarıma düşən qonorara bir kisə un almışdım; onda Sovetlər dağılhadağıl idi və biz tərəflərdə çörək qıtlığı yaranmışdı. Ailə böyük, ədəbiyyatla nəfəs alanlara "Gedin indi ədəbiyyat yeyin!" deyənlər də çox. Onda o bircə kisə unun dəyərinin nə qədər olmağı da, əlbəttə, hamıdan artıq uca Yaradana bəllidi!

Bu qədər yazar arasında mən Qalaktionu seçdim və ona "qardaşım" dedim. Çünki onun un ağrısı da, poeziya ağrısı da mənimkindən çox olmuşdu. Onunla müqayisədə mənim tək bircə plyusum-müsbətim var idi: axı Kazretidən kəndə – ata-anamın ziyarətinə əliboş getməmək üçün mən dörd övladımın dördünü də götürə bilirdim. Qalaktionun isə övladı yox idi. Kitablarından və əlyazmalarından savayı!

Ədəbiyyatın qanadları böyükdür. Altında da hamıya yer var. Lakin bu qanadlar altında da qanadlı yaşamalısan! Qalaktion qanadlı yaşadı, həmin kövrək qanadlarla da əbədiyyətə atlandı...

Atlandı və bəlkə də son sıçrayışında bu bircə bəndə oxşar, hətta bu bircə bənddən də artıq, üstəlik də misralara qardaş olan misralar pıçıladı:

*Bir quş çıxdı dəryadan,*
*xəbər aldı dünyadan:*
*Əgər bir gün öləcəkdim,*
*neçin doğdum anadan?*

Ədəbi-bədii qanadları çox böyük, əhatə dairəsi daha geniş idi onun!

Arada-sırada öysüz-evsiz olan bu qalaktika şairi heç zaman göysüz-səmasız olmadı! Əminəm!

O, Gürcüstan həyatının mirzəsi idi! Sizcə, unudulmaz Balzak özünü nahaqdanmı Fransa həyatının katibi (mirzəsi) hesab edirdi?

Qalaktionun ilk oxuduğum şeiri "Qar" adlı bir bənövşə qoxulu yazısı olub. Onun, Vaqif bəyin dediyi "göyüzünə dönmək ümidi"ni də ilk dəfə həmin bənövşə qoxulu şeirindən sezmişəm. O, bürəm-bürəm qarlı, qubarlı şeirində soyuğundan keçib-keçə bilməyəcəyinə əmin olmadığı yanvarı – yanvar ayını – "qardaşım" adlandırır. Yeri gəlmişkən, dəpdərin olmayan gürcücəmdən dolayı, həmin şeiri altı fərqli müəllifin tərcüməsində oxumuşam:

*Belə mükəddər günlərdə*
*qardaşım yanvarın qarı*
*xoş xəbərlər qasidi də ola bilər.*
*Çünki yorğun, lakin mavi yuxularım da buna işarə edir:*
*yəni bu qışı da adladacağam birtəhər, inşallah,bu qara qışı*
*– sənin qar kimi ağ əllərinin bəyazlığında (sətri tərcümə).*

Bəlkə də 2 saylı Kazreti məktəbində işləməsəydim və buradan verilən tibbi polis sayəsində düz iki il ara-sıra fasilələrlə, onda Tiflisin "Leçkombinat" adlanan və Çavçavadze – 5 ünvanında yerləşən şəfaxanasında müalicə almasaydım, bu kitab olmayacaqdı. Məhz bu ünvanda Qalaktion müalicə olunmuşdu. Qalaktionun intiharına qədər bu səfaxananın təyinatı fərqli olsa da, mən bu ünvanda vaxtilə bir yaxın adamımın, bəlkə də qardaşımın, daha doğrusu qan qardaşımın deyil, ruh qardaşımın, poeziya qardaşımın həkim müayinəsindən keçdiyini də, yaradıcılıq əzabı ağrılarını necə çəkdiyini də bilirdim. Buraya, bu tibb müəs-sisəsinə Gürcüstanın hər yerindən müəllimlər gəlirdilər; yəni biz müəl-limlərin bu tibbi sığortası burada keçərli idi.



Dəyişkənliklər və sabitliklər, mahiyyətlər və təzahürlər, zərurət-lər və təsadüflər dünya-sında mənim həyat ilə ölüm arasında, taledə və aqibətdə dünyanın dərki ilə özünüdərkimə Qalaktionun, onun timsalında da poeziyanin böyük təsirini yaxşı bilirəm. Qalaktiona ilk dəfə "qardaş" deməyim isə "Leçkombinat"da deyil, üç aydan bir növbəti gəlişlərimin birində buradan çıxıb pay-piyada Qalaktion körpüsündən keçərək vağzal yoluna düzələndə oldu. O gün, bu gün qardaşam ona!

...Körpüdə bir kişi durur. Ağladığını görməsinlər deyə başını Kürə sallayıb. Ağlayırsa, deməli, hələ uşaqlıq çağlarından tamam qopmayıb, deməli, içində körpəlikdən azmış uşaq hələ də oralarda təxəyyülü, yaradıcılıq fantaziyası ilə baş-başadır.

Bir də görürsən birisi guya mübtəla olduğu depressiyadan, guya keçirdiyi stressdən-gərginliklərdən öyünə-öyünə danışır. Çünki həqiqi depressiyanın, güclü antidepressiantların nə olduğundan xəbərsizdir.

Bilmirəm Qalaktionun, ya da aşağıda beş-üç kəlmə ilə xatırlatdığım, lakin əsərlərini çox, həm də çox sevdiyim Romen Qarinin (1914 – 1980) vaxtında indiki gücdə, indiki keyfiyyətdə sakitləşdiricilər olubmu? R. Qari intihardan əvvəlki vida sözündə belə yazıb: "Hər şeyi əsəb depressiyası ilə izah etmək də olar. Lakin nəzərə almaq lazımdır ki, bu hal hələ yetkinlik çağlarımdan davam edir. Məhz bu hal mənim ədəbiyyatla yaşamağıma, Sənətdə qalmağıma səbəb olan səbəbdir". Yəni təxminən belə.

Qalaktion körpüsünə qədər Romen Qarini oxumuşdum. Onun həyatı da ayrıca bir roman idi.

Mən də kiməsə "qardaş" demək istəyirdim. Və sonunda qardaşım Qalaktion oldu!

Açığı, elə bilirdim bir "Qardaşım Qalaktion" şeirimdən savayı, başqa yazıya ehtiyac duymayacağam. Lakin sonralar başqa şeirlər və esselər gəldi.

"Qardaşım Qalaktion"u ilkində gizli saxlamışdım, sonrasında həkimimə danışdım. Gözləmədiyim halda həkim də duyğularımı təqdir elədi. Sən demə, istər xolerik ol, istərsə də fleqmatik, melanxolik ol, ya da sanqvinik, yaxşı nevroloq-psixoloq məqamına çatdığı elmi sayəsində sənin doğru, ya da yalan qardaş olduğunu təxmin edə bilir.

"Qardaşlıq şüarı altında bu dünyada o qədər şər əməl işlənir ki, əgər mənim doğma bir qardaşım olsaydı, elə bu səbəbdən onu "xalaoğlu" adlandırardım". Bu sözlər bir məşhurun sözləridir.

"Qardaşım dəniz" adlı roman da var.

Az yuxarıda adını hörmətlə çəkdiyim, iki dəfə Qonkur mükafatı laureatı Romen Qarinin "Qardaşım Okean" adlı silsilə əsərləri məşhurdur. Bir-iki nümunə verirəm:

"Dostcasına qardaşıma – Okeana baxıram: o, hüdudsuz-sərhədsiz kimi görsənir sanki, lakin mən bilirəm; bilirəm ki, o, hər tərəfdən sərhədlərlə, maneələrlə üzləşir; əmin-yəmin, buna görə həyəcan içindədir və bu qədər səs-küy salır".

Hələ xilqət-yaradılış qardaşları olmaq bir ayrı, məgər şair – şairə, yazıçı da yazıçıya qardaş deyilmi?! Məgər arada-sırada mənəvi-ruh qardaşlığı qan qardaşlığından irəli deyilmi?

Təəssüf ki, çox vaxt bir məkanda: kənddə, şəhərdə, ölkədə bir insanın ağıllı olması və başqalarından fərqlənməsi kifayətdir ki, ona böhtan atmağa başlasınlar: yəni aşiqlikdə, yoxuşu yeyin çıxmaqda və enişi sürətli enməkdə, İstanbula şeir həsr eləməkdə, Şeyx Sənan misilli – sevdiyi xristian qızına qovuşmaq üçün onun yolunda donuz otarmaqda, ucalıqdan yıxılmaqda, Kitabıstanda yaşamaqda, Ay işığına bağlanmaqda, ölməyə Səmərqəndə getməkdə, içki düşkünü olmaqda, vətənə xəyanətdə və sairədə və ilaxırda...

Yəni Qalaktionun, eləcə də Romen Qarinin timsalında bu, qaçılmaz olub. Görükən budur!

Belə yazarların həyat düsturunda başdan Poeziya yazılır. Onların Poeziyasında "qarın" heç vaxt qardaşdan irəli deyil!

...Qalaktionun atabir, anabir qardaşı olmayıb. İndi görün məndən başqa neçə qardaşı olmalıdır? Erkən yetim qalmışdı; o, hələ dünyaya gəlməmiş atası rəhmətə getmişdi.

...İndi Qalaktion körpüsündəyəm: vağzala tərəf gedirəm. Tək niyə? Qardaşımla bərabər addımlayıram.

Biz: o da, mən də – Markes demiş – sona gəldiyimiz üçün ağlamadıq, onu yaşadığımız üçün... gülümsədik. Azından... gülümsəməyə çalışdıq.

**İbrahimxəlil**

TARİX

# DƏYƏRLİ ÖMÜR



Qaçağan kəndinin sakinləri arasında ictimai-siyasi xadimlər, ziyalılar, əmək qəhrəmanları və diğər sahələr üzrə tanınmış insanları çox olmuşdur . Onlardan biri də, Kəklik Məmid qızı Mikiyevadır. O, 1938 –ci ildə Qaçağan kəndində anadan olmuşdur. İlk təhsilini də bu kənddə almışdır. Kəklik Mikiyeva 1954-cü ildə Qaçağan orta məktəbini – gümüş medalla bitirmişdir. Kənd təsərrüfatı sahəsinə marağı onu, Gəncə ( o zamanlar - Kirovabad) şəhərindəki S. Ağamalı oğlu adına Azərbaycan Dövlər Kənd Təsərrüfatı İnstitutuna aparır. Orta məktəbi bitirən il həmin Ali təhsil ocağının Aqronomluq fakultəsinə daxil olur. Təhsil illərində bu sahə üzrə dərin biliklərə yiyələnir. Kənd təsərrüfatına olan böyük marağı , onu bu sahənin daha da mükəmməl mütəxəssisi olmağa həvəsləndirir. 1959-cu ildə həmin institutu fərqlənmə diplomu ilə bititən Kəklik Mikiyeva təhsilini daha da artırmaq üçün Moskva şəhərinə gedir. O, aspiranturada təhsilini davam etdirir, paralel olaraq siyasi fəaliyyətlə məşğul olur. Kommunist partiyasının üzvü olur.

Təhsil illəri uğurla başa çatır. Döğma kəndinə qayıdan Kəklik Mikiyeva istedadı və bacarığı ilə rəhbərliyin diqqətini cəlb edir. İlk olaraq briqadir, daha sonra yeni yaradılmış Qaçağan süddçülük - tərəvəzçilik sovxozuna baş aqronom təyin edilir. Ona verilən tapşırıqların öhdəsindən layıqincə gələn Kəklik Mikiyeva əzmlə çalışaraq, uğurlara imza atır. Onun zəhmətini nəzərə alan mərkəzi rəhbərlik 1968-ci ildə Bolnisi rayon dairəsindən SSRİ Ali Sovetinə deputatlığa namizəd verir . Gürcüstandan seçilən 30 deputap arasında yeganə qadın deputat olaraq tarixə düşür. Xalqın elçisi kimi Kəklik Mikiyeva deputat fəaliyyətində də yorulmadan çalışmış , insanların xidmətində dayanmışdır.

Bir müddət sonra ailə quran Kəklik Mikiyeva Bakı şəhərində yaşayır. Burada Kənd Təsərrüfatı Nazirliyində şöbə müdürü vəzifəsində çalışır .

Kəklik Mikiyeva 1973- cü ildə döğma Qaçağan kəndinə qayıdaraq, yenə əvvəllər çalışdığı Qaçağan Süddçülük-Tərəvəzçilik sovxozuda aqrokimya laboratoriyasının rəhbəri kimi əmək fəaliyyətini davam etdirir. Kəklik xanım hər zaman olduğu kimi, bu dəfə də etimadı doğruldaraq xalqın sevimlisinə çevrilir. Az sonra, onu Qaçağan Kənd Soveti İcrayyə Komitəsinə sədr təyin edirlər . Bu vəzifəsində də Kəklik Mikiyeva rəhbərlik etdiyi ərazidə əhalini narahat edən problemlərin həllinə çalışır. Bir çox uğurlu layihələrə imza atır. Kəndin abadlaşdırılmasına diqqət yetiri.

Onun zəhməti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, həmin dövrdə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Kəklik Mikiyeva 1980 –ci ildə dünyasını dəyişb. Dünyada vaxtsız köçən Kəklik xanımın həyat yoldaşı Yaqub Abbasov Azərbaycan Dövlət İqtisadiyyat İnstitutunda müəllim işləmişdir. Oğlu Vüqar Azərbaycan Politexnik İnstitutunun Radiotexnika fakültəsini, qızı Gültəkin Maliyyə- Kredit fakültəsinin məzunu olmuşdur.

Dünyadan tez köçən Kəklik Mikiyeva az ömür aralığında o qədər xeyirxah işlərə imaza atmışdır ki , bu gün də o xalq tərəfindən unudulmur və heç vaxt unudulmayacaq.

**Mail Alyaroğlu,**
**Ehtiram Əmirxanlı**

### Bura Gürcüstandır

Aşıq, bura Gürcüstandır,
Başla, Gürcüstanla başla!
Qədim ustadnamələrlə,
Böyük bir dastanla başla!

Kür qıraqları göyçəkdi,
Dörd yanı çiçək-çiçəkdi!
Onu sevməyim gerçəkdi,
Bağla və bostanla başla!

Qəlbini oxu üzünnən,
Bax ona şair gözünnən!
Rustavelinin sözünnən,
Pələnglə, aslanla başla!

### Ramazan

İslamın müqəddəs ayı Ramazan,
Oruc tutub, pay bölüb, savab qazan,
Rahatlıq bulammaz onu hər pozan,
On bir ayın sultanıdır Ramazan!

Oruc tutan həmişə xeyir tapar,
Bədənindən bir çox zəhəri atar,
Gecələr hər zaman çox rahat yatar,
Hər il başımın tacıdır Ramazan!

Uşaqlıqdan sevirəm Ramazanı,
Gözlərəm beş vaxt oxunan azanı,
Allah mutlu edər bunu yazanı,
Çox dərdi-sərə dərmandır Ramazan!

### Kəlağayı

Hər ilməsi göz eyləyər,
Sevəni yoldan əyləyər,
Şair tərənnüm eyləyər,
Naxışı ağ kəlağayı!

Görürük ki başlara tac,
Sağalmayan dərdə əlac,
İncə naxış, qulac-qulac,
Yarpaq-yarpaq kəlağayı!

Şöhrəti dünyaya bəlli,
Haşiyəsi durna telli,
Butaları güllü-güllü,
Budaq-budaq kəlağayı!



**Nigar Allahverdiyeva**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**14 mart**

•1924 — İqrar Əliyev, Azərbaycan tarixçisi, anadan olub.
•1939— Almaniya Çexoslovakiyanı işğal edib.
•1978— İsrail qoşunları Livanın cənubunu işğal edib.
•1998 —İranın cənubunda 6.8 bal gücündə zəlzələ baş verib.
•ABŞ — Beynəlxalq Pi ((π) = 3,14) günü (çevrənin uzunluğu və dairənin sahəsi başda olmaqla riyaziyyat və fizikada böyük bir yerə malikdir).

**15 mart**

•1493— Kristofer Kolumb Amerikaya etdiyi ilk ekspedisiyadan İspaniyaya qayıdıb.
•1564 — Moğol İmperatoru Əkbər şah qeyri-müsəlman təbəələrdən cizyə (müsəlman ölkələrində qeyri müsəlman əhalidən can və mal mülkiyyətinin qorunması qarşılığında alınan vergidir) vergisini ləğv edib.
•1892— "Liverpool Futbol Klubu" qurulub.
•1848—Macaristan: Avstriya İmperiyasına qarşı inqlab başlayıb.
•1931—Qiorqi Lasxişvili, gürcü publisist, redaktor, ictimai xadim, vəfat edib.
•1991— Almaniya İkinci Dünya Müharibəsindən sonrakı dörd işğalçı dövlətdən (Fransa, Böyük Britaniya, ABŞ və Sovet İttifaqı) rəsmi olaraq tam müstəqilliyini bərpa edib.
•2012 — Bəkir Nəbiyev, Azərbaycan ədəbiyyatşünası, vəfat edib.
•Belarusiya— Konstitusiya Günü
•Gürcüstan—Artilleriya Günü

**16 mart**

•1079 — İranda müsəlman təqvimi tətbiq olunub.
•1939—Praqa qalasından Hitler Bohemiya və Moraviyanı Alman protektoratı elan edib.
•1945— İngilis bombardmançıları 20 dəqiqə ərzində Vürstburqun (Almaniya) 90%-ni məhv edib; 5 min insan ölüb.
•1993—Gürcüstan qoşunları Afaan separatçılarının və Şimali Qafqaz konfederasiyalarının Suxumiyə kütləvi hücumunu dəf edib; İki gün davam edən döyüşlərdə gürcü tərəfdən 137 nəfər həlak olub, 350-yə qədər adam yaralanıb.
•2006—BMT Baş Assambleyası yekdilliklə BMT İnsan Hüquqları Şurasının yaradılmasını dəstəkləyib.

**17 mart**

•180 — Kommod atası Mark Avrelinin ölümündən sonra on səkkiz yaşında Roma İmperiyasının yeganə imperatoru olur.
•1919 — Hüseyn Ərəblinski, Azərbaycan aktyoru, vəfat edib.
•1931—Nevadada qumar oyunları qanuniləşdirilib.
•1950—Quram Kipiani, gürcü arxeoloqu, memar, anadan olub.
•1959—Qalaktion Tabidze, gürcü şair, vəfat edib.

**18 mart**

•1896— **Lado Qudiaşvili, gürcü rəssam, anadan olub.**
•1915 — Birinci Dünya müharibəsi zamanı Mustafa Kamal Atatürkün komandanlığı ilə Çanaqqala müharibəsi zəfərlə yekunlaşmışdır. Müharibədə 3000-dən çox Azərbaycan türkü qəhrəmancasına şəhid olmuşdur.
•1921— Polşa və SSRİ sülh müqaviləsi imzalayıb, Polşa-Sovet müharibəsi başa çatıb.
•1925—SSRİ-də məcburi hərbi xidmət haqqında qanun qəbul edilib.
•1965 — Sovet kosmonavtı Aleksey Leonov "Vosxod 2" kosmik gəmisini 12 dəqiqəliyə tərk edərək açıq kosmosa çıxan ilk insan olub.
•1979 — Xan Şuşinski, Azərbaycan xanəndəsi, vəfat edib.
•Türkiyə — Çanaqqala Zəfəri və Şəhidləri Anma Günü

**19 mart**

•1945—İkinci Dünya müharibəsi: Adolf Hitler Almaniyadakı bütün sənaye sahələri, hərbi qurğular, mağazalar, nəqliyyat vasitələri və rabitə vasitələrinin məhv edilməsini əmr edən "Nero Fərmanı" verib.
•2003— ABŞ və Britaniya qoşunları İraqı işğal edib. İraq müharibəsi başlayıb.
•Belçika, İspaniya, Portuqaliya: — Atalar Günü

**20 mart**

•1919 — Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Müslüm Maqomayevin "Şah İsmayıl" operasının premyerası keçirilmişdir.
•1926 — Faiq Bağırzadə, Azərbaycan alimi, anadan olub.
•1956—Tunis Fransadan müstəqil olub.
•1990 — **Lev Yaşin, Sovet futbolçusu, vəfat edib.**
• Azərbaycan — **Novruz bayramı**

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## LADO QUDİAŞVİLİ



***Gürcüstanın görkəmli rəssamı, monumental və dekorativ sənət ustası, həmçinin teatr və kino sahəsində tanınmış yaradıcı şəxsiyyətdir.*** O, 1896-cı ildə Tbilisidə anadan olmuşdur. Gənc yaşlarından incəsənətə maraq göstərən Qudiaşvili Tbilisi Rəssamlıq Akademiyasında təhsil almışdır. 1914-cü ildə oranı bitirmiş və məktəbdə rəsm müəllimi işləmişdir. 1915-ci ildə ilk şəxsi sərgisi Tiblisidə baş tutub və bu da Gürcüstanın ədəbi dairələrində onun şöhrətini artırıb. Beləliklə, Paolo Yaşvilinin təşkil etdiyi "Mavi buynuzlar" simvolik şairlər qrupuna yaxın olan gürcü ziyalılar dairəsinə girib.

Gürcü incəsənətinin daha da inkişaf etməsinin yalnız qlobal şəraitdə mümkün olduğunu anlayaraq 1919-cu ildə rəssamlar David Kakabadze və Şalva Kikodze ilə birlikdə o vaxt əslində dünya sənətinin mərkəzi olan Parisə gedərək peşəkarlığını daha da təkmilləşdirir. Qudiaşvilinin əsərlərində Gürcüstanın zəngin folkloru, xalq nağılları və tarixi motivləri əsas yer tutur. Qudiaşvili yağlı boya, quaş, akvarel, divar rəsmləri, qrafika işləri və qarışıq üsullarla işləyib. Onun irsinə portretlər, mənzərələr, tarixi rəsmlər, alleqorik, mifoloji və siyasi, epik və lirik əsərlər daxildir. Natura nadir hallarda çəkirdi. Bunu əsərləri arasında nisbətən az sayda natürmort sübut edir. Şəhər mənzərələrinin çoxu Paris dövrünə aiddir, bundan sonra rəssam sırf təbiət rəsmindən uzaqlaşdı. Hətta portretləri belə ən çox yaddaşdan çəkirdi. Lado Qudiaşvilinin rəsmlərində Gürcüstanın qədim ənənələri, folklor qəhrəmanları və tarixi motivlər üstünlük təşkil edir.

Lado Qudiaşvilinin ən məşhur əsərləri olan "Kölgələr və mistik varlıqlar", "Gürcü qadınları", "Tbilisi küçələri", "Müqəddəs Nino", "Rustavelinin dünyası" və s. Gürcüstanın mədəni irsində mühüm yer tutur. Onun monumental sənətdə yaratdığı əsərlər Tbilisinin memarlıq abidələrində də geniş təmsil olunur.

Lado Qudiaşvili 1980-ci ildə vəfat etmişdir. Onun yaradıcılığı bu gün də Gürcüstanın incəsənət aləmində xüsusi dəyər kəsb edir. Rəssamın əsərləri Gürcüstanın ən böyük incəsənət qalereyalarında qorunub saxlanılır.

## LEV YAŞİN




***Əfsanəvi qapıçı, 5-qat SSRİ çempionu, "Qızıl top" mükafatını almış yeganə qapıçı.*** Sovet futbolunun görkəmli şəxsiyyətlərindən olan Lev İvanoviç Yaşin 22 oktyabr 1929-cu ildə Moskvada doğulub. İkinci Dünya Müharibəsi zamanı 12 yaşında olan Lev ailəsi ilə birlikdə Kazana köçmək məcburiyyətində qalmış və burada hərbi zavodda işləməyə başlamışdır. Müharibədən sonra Moskva yaxınlığında yerləşən zavodlardan birində çilingər kimi çalışan Yaşin, eyni zamanda zavodun futbol komandasında oynayırdı. Onun futbol istedadı məhz bu dövrdə üzə çıxmış və 18 yaşında olarkən "Dinamo Moskva" klubunun gənclər komandasında oynamaq şansı əldə etmişdir.

Lev Yaşin bütün peşəkar futbol karyerasını "Dinamo Moskva" klubunda keçirmişdir. 1949-cu ildə əsas komandaya cəlb olunsa da, ilk illərdə çətinlik çəkmiş, hətta bir müddət klubun hokkey komandasına qoşulmuşdur. Lakin 1953-cü ildən etibarən "Dinamo"nun əsas qapıçısı olub və bir daha öz mövqeyini itirməyib.

Yaşin təkcə topu saxlamaqla deyil, həm də aktiv qapıçı oyun tərzi ilə fərqlənib. O, qapı xəttini tərk edərək müdafiəyə kömək edən ilk qapıçılardan biri olmuşdur. Lev Yaşin 1954-1970-ci illər arasında SSRİ millisinin əsas qapıçısı olmuşdur. 1960-cı ildə SSRİ yığması ilə ilk Avropa çempionatının qalibi olub. Bu, SSRİ futbol tarixinin ən böyük uğurlarından biri idi. 1956-cı ildə SSRİ yığması ilə Olimpiya Oyunlarının qızıl medalını qazanıb. Dörd Dünya Çempionatında (1958, 1962, 1966, 1970) iştirak edib. 1963-cü ildə "Qızıl Top" mükafatını qazanıb. Bu, tarixdə bir qapıçıya verilən yeganə "Qızıl Top" mükafatı olaraq qalır. 1966-cı ildə isə SSRİ yığması ilə dünya çempionatının yarımfinalına çıxaraq 4-cü yeri qazanıb.

Lev Yaşin futbol meyda nında "Qara Hörümçək", "Qara Pantera" və "Qara Panter" ləqəbləri ilə tanınırdı. O, həmişə qara forma geyinir, meydanda sürətli və çevik hərəkət edirdi. Uzun qolları və reaksiyası sayəsində sanki hər topu tuta bilirdi.

Lev Yaşin 1971-ci ildə peşəkar futbolçu karyerasını başa vurub. Bundan sonra "Dinamo Moskva" klubunda məşqçi kimi fəaliyyət göstərib və futbolun inkişafına töhfə verib. 20 mart 1990-cı ildə, 60 yaşında Moskva şəhərində vəfat edib. Moskva şəhərində onun şərəfinə abidələr qoyulmuş, "Dinamo" stadionuna onun adı verilmişdir.

## NOVRUZ

Azərbaycan xalqının ən qədim və sevimli bayramlarından biridir. Bu bayram təkcə təbiətin oyanışı deyil, həm də xalqın tarixi, milli-mənəvi dəyərləri, adət-ənənələri ilə sıx bağlıdır. Novruz baharın gəlişini, yenilənməni və həyatın dirçəlməsini simvolizə edir. Azərbaycan xalqı bu bayramı yüz illərdir böyük coşqu və sevgi ilə qeyd edir.

Novruz bayramının tarixi çox qədim dövrlərə gedib çıxır. Alimlərin fikrincə, bu bayramın kökləri ən azı 3,000 il əvvələ, Zərdüştilik dövrünə dayanır. Zərdüştilikdə Günəşə və od elementinə böyük əhəmiyyət verilirdi, Novruz isə məhz baharın gəlişi ilə Günəşin qələbəsini simvolizə edir. Keçmiş dövrlərdə Novruz yeni ilin başlanğıcı kimi qeyd olunurdu və bu ənənə günümüzə qədər gəlib çatmışdır.




Azərbaycan xalqı Novruzu qədim zamanlardan bəri milli bayram kimi qeyd edir. İslamın qəbulundan sonra da bu bayram əhəmiyyətini itirmədi, əksinə, xalqın inanc və adətləri ilə uyğunlaşaraq daha da zənginləşdi. Novruz təkcə Azərbaycanda deyil, İran, Orta Asiya, Anadolu, Balkan ölkələri və hətta Hindistanda belə qeyd edilir.

Azərbaycan müstəqillik qazandıqdan sonra Novruz bayramına xüsusi önəm verildi. 2009-cu ildə UNESCO Novruzu qeyri-maddi-mədəni irs siyahısına daxil etdi, 2010-cu ildə isə BMT bu bayramı beynəlxalq bayram kimi elan etdi. Hər il martın 20-21-də Novruz bayramı Azərbaycan Respublikasında dövlət səviyyəsində qeyd olunur. Bakı başda olmaqla bütün şəhərlərdə bayram tədbirləri keçirilir, meydanlarda tonqallar yandırılır, milli musiqilər səslənir və xalq oyunları təşkil olunur.

Novruz bayramı müxtəlif adət-ənənələrlə müşayiət olunur. Hər bir adət qədim inanclardan qaynaqlanır və xalqın dünyagörüşünü əks etdirir.

Bunlardan biri **tonqal qalamaqdır.** Od Azərbaycan xalqının inanclarında müqəddəs hesab edilir.

**Küsülülərin barışması.** Novruzda heç kim küsülü qalmamalıdır. Bütün küsülülər barışmalıdır.

**Qonaq getmək.** Novruzda qohumların və qonşuların evinə qonaq gedərlər, onlara Novruz payı apararlar.

**Yallı getmək.** Azərbaycan xalqının qədim dövrdən bəri ifa etdiyi rəqsdir. Bunun mənası insanların birliyidir.

**Yumurta döyüşdürmək.** Oyunun nəticəsində tərəflərdən biri digərinin tələblərini yerinə yetirir.

**Yaşlıları ziyarət etmək.** Yaşlı və xəstə insanları ziyarət olunar, bayramları təbrik edilir.

Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. O, həyatın və məhsuldarlığın simvoludur. Novruzdan bir neçə həftə əvvəl buğda dənələri suya qoyulur və cücərdilir. Səməni göyərdikcə, bolluq və bərəkət gətirəcəyinə inanılır. Həmçinin, səməni qədim türk mifologiyasında təbiətin yenidən doğuluşunu simvolizə edir.

**Qapı pusmaq və papaq atmaq:** Gənclər Novruz axşamı qonşuların qapısına papaq atır və ev sahibləri həmin papağın içinə bayram şirniyyatları qoyur. Bu ənənə xalq arasında xoş niyyət və bərəkət gətirdiyinə inanılır.

**Fal açmaq və qulaq falı:** Qızlar və gənc oğlanlar Novruz gecəsi müxtəlif fal açırlar. Qulaq falı adlanan ənənəyə görə, gənclər qonşuların qapısı arxasında dayanaraq onların danışığını dinləyirlər. Əgər eşitdikləri sözlər xoş olarsa, bu, onların gələcəyinin uğurlu olacağına işarə sayılır.

Novruz bayramının ən gözəl məqamlarından biri bayram süfrəsidir. Süfrədə yeddi elementin olması vacibdir və bunların hər biri "S" hərfi ilə başlayır. Novruz süfrəsində əsasən bunlar olur:

• ***Səməni*** – həyatın və bolluğun rəmzi
• ***Süd*** – saflıq və təmizlik rəmzi
• ***Sirkə*** – keçmiş dərsləri və təcrübəni simvolizə edir
• ***Sumax*** – günəşin doğuşunu və yeni başlanğıcı təcəssüm etdirir
• ***Sarımsaq*** – sağlamlığın və qoruyucu qüvvənin rəmzi
• ***Şəkərbura, paxlava, qoğal*** – bayramın şirinliyini ifadə edir

Novruz süfrəsinin başında isə şamlar yandırılır. Şam işığı ailəyə nur və xoşbəxtlik gətirdiyinə inanılır.

Novruz sadəcə bir bayram deyil, həm də Azərbaycan xalqının milli kimliyini, birliyini və köklərini qoruyub saxlayan bir ənənədir. O, müxtəlif nəsilləri bir araya gətirir və insanlara sevgi, mərhəmət və birlik hissi aşılayır. Bu gün Novruz bayramı təkcə keçmişin mirası kimi deyil, həm də gələcək nəsillərə ötürüləcək bir dəyər kimi yaşamaqdadır.

Novruzu qeyd edərkən kəndlilər təzə ilin necə keçməyini: quru və yaxud yağıntılı, məhsuldarlığın dərəcəsini təyin edirdilər. Ənənəyə görə Novruzun birinci gününü - yaz, ikincini - yay, üçüncünü - payız, dördüncü gününü isə - qış sayırlar. Əgər birinci gün küləksiz və yağmursuz olarsa, deməli bu yaz kənd təsərrüfatı işləri üçün əlverişli olacaq. Əksinə yağmurlu, külək olsa, deməli bütün yaz belə olacaq. Qalan üç günlərdə də yayın, payızın və qışın necə olacağı təyin olunurdu.

Novruz şən və sevimli bayramdır.

**Novruz Bayramınız Mübarək!**

GÜRCÜSTAN
Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება
"საქართველო"
"SAKARTVELO"
Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა



İDMAN İDMAN

## GAİM-də QIZLAR ARASINDA ŞAHMAT YARIŞI KEÇİRİLİB



***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində 8 mart - Beynəlxalq Qadın-lar Gününə həsr olunmuş qızlararası şahmat turniri keçirilib.***

Bildiririk ki, Marneulidə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzində (GAİM) Marneuli bələdiyyəsinin Saral kəndi, Saqareco bələdiyyəsinin Qaraçöp Parlaq Gələcək Tədris Mərkəzlərinin və Beynəlxalq Maarif Məktəbinin təmsilçiləri iştirak etmişlər.



Turnir, gənc şahmatçılar arasında intellektual bacarıqları inkişaf etdirmək və dostluq əlaqələrini gücləndirmək məqsədi daşıyırdı.

Gərgin keçən yarışda:
- Nuray Hacıyeva (Qaraçöp PGTM)
- Zəhra Allahverdiyeva (GAİM),
- Alina Yaqubova (GAİM),
- Yetər Əliyeva (Qaraçöp PGTM)

qalib gəlmişlər

## YENİ NƏŞRLƏR




***2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan yazıçı-publisist Bahəddin Oruclunun bu günlərdə Tbilisinin "Universal" nəşriyyatında işıq üzü görmüş "Demişik, deyirik, deyəcəyik" adlı kitabı onun oxuculara dördüncü görüşüdür.*** Kitabda müəllifin kiçik hekayələri, esseləri və özünün baş redaktoru olduğu "Borçalı mollası" qəzetində çap olunmuş məqalələri və son dövr yaradıcılığından nümunələr toplanmışdır.

Kitabın redaktoru Şamil Ziyadəliyev, önsözün müəllifi tədiqatçı Avtandil Qəriboğlu, texniki redaktoru Anar Tamı, korrektoru isə Aysel Tamıdır.

Bahəddin Oruclunun bu yeni kitabınında tələbkar oxucular tərəfindən rəğbətlə qarşılanacağına ümid edir və ona yaradıcılıq uğurları arzulayırıq

**Şamil Ziyadəliyev**

## RUSTAVİDƏ SAVALAN OSMANLININ "HƏYATIN ANLAMI VƏ RUHUN GİZEMİ" ADLI KİTABININ TƏQDİMATI KEÇİRİLİB




***Rustavi Təhsil və Mədəniyyət Mərkəzində pedaqoq-yazar Savalan Osmanlının Türkiyənin "Yenirəng Yayıncılıq" nəşriyyatında çapdan çıxmış "Həyatın anlamı və ruhun gizemi (sirri)" kitabının təqdimat mərasimi keçirilib.*** Tədbiri giriş sözü ilə açan Mərkəzin rəhbəri Raidə Dərziyeva qonaqları salamladıqdan sonra müəllifi təbrik edib, ona yeni yaradıcılıq uğurları arzulayıb. Raidə Dərziyeva öz çıxışında, həmçinin Savalan Osmanlının insani keyfiyyətlərindən bəhs edib, bu keyfiyyətlərin onun yaradıcılığına da sirayət etdiyini xüsusi qeyd edib. Sonra tədbirin aparıcısı şair-publisist Rafiq Hümmət Türkiyə türkcəsində nəfis tərtibatla çap olunmuş kitab barədə geniş məruzə etmiş, əxlaqi-didaktik, fəlsəfi fikirlərlə zəngin olan bu kitabın tezliklə Gürcüstanda Azərbaycan türkcəsində də nəşrinin vacibliyini vurğulayıb. Tədbir zamanı müxtəlif bölgələrdən gələn ziyalılar, söz adamları, müəllimlər bir-birindən maraqlı çıxışlar edib, müəllifə öz ürək sözlərini çatdırıblar. Tanınmış şair Rövşən Nəsiboğlu, Qardabaninin Qaratəhlə ictimai məktəbinin direktoru Bəh-ram İsayev, həmin məktəbin dərs hissə müdiri Ramiz Mustafayev və müəllimi Yusif Hüseynov, "Təhsil" qəzetinin redaktoru Abay Paşayev, veteran müəllim Suddarxan Kazımov, Qardabani şəhər 3 saylı məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi, pedaqoq-yazar Sevda Şahverdiyeva, Rustavi şəhər 18 saylı məktəbin müəllimləri Nurlana Əliyeva və Alidə Kazımova, Mərkəzin müəllimi Tsira Londaridze, Qardabani Mədəniyyət evinin əməkdaşı Xalidə Qəribova, ziyalılardan Məhəmməd Yusifli, Haley Həsənov, Namiq Hüseynov, Kəmalə Kazımova və başqaları çıxış edərək, həyatın müxtəlif məqamlarını xüsusi anlamla təsvir edən kitabın tərbiyəvi əhəmiyyətindən söz açıblar.

## BİLDİRİŞ

İstedadları üzə çıxarmaq üçün Tbilisi şəhərində ilk dəfə olaraq müsabiqə-festival təşkil olunur. Müsabiqə-festivalı "Axali" ("Yeni") teleşirkəti ilə "Tsisartxela" ("Göy qurşağı") jurnalı birlikdə keçirir. Müsabiqədə hər bir iştirakçı müxtəlif sahələr (ədəbi-bədii, incəsənət,rəsm və s.) üzrə öz qabiliyyətini təqdim edə bilər.

Müsabiqəyə əsərləri təqdim etmək üçün son tarix - 25 mart 2025-ci il.

**Ünvan:** Ağmaşenebeli prospekti, 106, "İmedi" mədəniyyət evi.

**Əlaqə telefonları:** 599 -88-97-18 (Keti Mikadze);
595-05-30-03 (Natia Baladze);
557-63-07-63 (Keta Trapaidze);

## KÖHNƏ TBİLİSİ: TARİX VƏ MEMARLIĞIN VƏHDƏTİ



**Foto E.Şahvələdindir.**

## NİKAH ÜZÜKLƏRİNİN QİYMƏTİ KƏSKİN BAHALAŞIB



***Fevral ayında, əvvəlki ilin eyni dövrü ilə müqayisədə, 958 əyarlı qızıl nişan üzüyünün qiyməti 33% bahalaşıb.*** Bu barədə Milli Statistika Xidmətinin hesabatında qeyd olunub. Belə ki, dünya birjalarında qızılın rekord səviyyədə bahalaşması fonunda dəyərli metalın qiyməti Gürcüstanda da artıb. Hazırda dünya birjalarında bir unsiya qızılın qiyməti 2 min 911 dollara bərabərdir. "Gold Prices"in 9 mart tarixli məlumatına əsasən, qızılın qiyməti illik olaraq 34% bahalaşıb, təkcə bir ay ərzində 2.4%-lik qiymət artımı qeydə alınıb, son beş ildə isə dünyada qızıl 74% bahalaşıb.

## ABUNƏ YAZILMAĞI UNUTMAYAQ !

### "GÜRCÜSTAN" QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏRİN VƏ ABUNƏÇİLƏRİN NƏZƏRİNƏ!

***Hörmətli oxucular!***

"Gürcüstan" qəzeti Sizin sayənizdə bir əsrdir ki, davamlı nəşr olunaraq, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirib, oxuculara sədaqətlə xidmət edir. Mənəvi çırağımız olan qəzetimiz həmişə Sizə arxalanmış, Sizdən ilham almışdır.

"Gürcüstan" qəzeti öz səsi, sözü ilə sələflərin mübariz ruhunu, həmişəyaşar ənənələrini qoruyub saxlayır və beləliklə, aybaay, ilbəil, nəsilbənəsil Gürcüstan azərbaycanlılarının həyat salnaməsiniyaradır, mənəvi dəyərlərimizin zənginləşməsinə töhfələr bəxş edir, milli-mənəvi dəyərlərimizin daşıyıcısı kimi, dilimizin saflığının keşiyində qürurla dayanır. Qəzetimiz 2020-ci ilin mart ayına qədər 2000 nüsxə ilə nəşr olunurdusa, hal-hazırda qəzetin yayım coğrafiyası genişlənmiş, abunə sayı 55 faiz artaraq, 3100 nüsxəyə çatmışdır. Bir əsrdən çox ömrü olan "Gürcüstan" qəzetini yaşatmaq hər birimizin mütləq mənəvi borcudur. 2025-ci ildə "Gürcüstan" qəzetinə abunə olmaq istəyən şəxslər-fərdi abunəçilər (adını, soyadını və ünvanını göstərməklə), məktəblər, idarə, müəssisə və təşkilatlar yerlərdə qəzetin müxbirləri ilə və ya E-mail:Gurcustan_1921@mail.ru elektron poçtu vasitəsi ilə müqavilə bağlamaqla abunə haqqını qəzetimizin səkkizinci səhifəsində göstərilən bank hesabına köçürə bilərlər.

"Gürcüstan" qəzetinə illik abunə haqqı 20 (iyirmi) laridir. İl ərzindəabunəçiyə həftədə bir dəfə olmaqla 50 (əlli) qəzet təqdim ediləcək.

***Milli mənəvi dəyərlərimizi yaşadan, dilimizin keşiyində duran, varlığımızın göstərcisi olan "Gürcüstan" qəzetini yaşatmaq və ondan bəhrələnmək üçün abunə olmağı unutmayın.***

Qəzetimizə il boyu abunə ola bilərsiz. Abunə müddəti ödəniş tarixindən başlanır. "Gürcüstan" qəzetinin qayğıkeş, əməksevər kollektivi Sizin xidmətinizdə dayanaraq, etimadınızı doğruldacaqdır.

Əvvəlcədən minnətdarlığımızı bildiririk.

**Qeyd:** Qəzetin abunəçiyə vaxtında çatdırılması təmin olunacaq.

Müdiriyyət.

გაზეთის ანგარიშის ნომერი
შპს „გურჯისტანი" ს/კ 203863792
ანგარიშის **№ GE03LB0111185703773000**
სს ლიბერთი ბანკი **SWİFT: LBRTGE22**

Baş redaktor:
Xaləddin YOLÇUYEV

Redaktor müavini:
Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.